# İSLAM OYANIŞI

**Ayətullah Xameneinin çıxışlarından**

Kitabın adı:................................İslam Oyanışı
Tərtib edən:......................... Məhəmməd Rizai
Tərcümə edən:...........................İbrahim Mirzə
Nəşr edən:.................................."Üfüqe-fərda"
Çap tarixi:...............................................2012
Çap növbəsi:.........................................Birinci
Tiraj:.......................................................3000

# Böyük Məqamlı Rəhbər Ayətullah Xameneinin Beynəlxalq İslam Oyanışı Konfransında bəyanatı

Bismillahir-rəhmanir-rəhim

Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh

Əlhəmdulillahi rəbbil-aləmin vəssəlatu vəssəlamu əla səyyidina muhəmmədin və alihit-təyyibin və səhbihil muntəcəbin

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ يَا أَيُّهَا النَّبِيُّ اتَّقِ اللَّهَ وَلَا تُطِعِ الْكَافِرِينَ وَالْمُنَافِقِينَ ۗ إِنَّ اللَّهَ كَانَ عَلِيمًا حَكِيمًا * وَاتَّبِعْ مَا يُوحَىٰ إِلَيْكَ مِنْ رَبِّكَ ۚ إِنَّ اللَّهَ كَانَ بِمَا تَعْمَلُونَ خَبِيرًا * وَتَوَكَّلْ عَلَى اللَّهِ وَكَفَىٰ بِاللَّهِ وَكِيلًا

(Qaləllahul-əzizil həkim: bismillahir-rəhmanir-rəhim; ya əyyuhənnəbiyyut-təqillahə vəla tutiil kafirinə vəl-munafiqin; innəllahə kanə əlimən həkima; vəttəbi ma yuha iləykə min rəbbikə innəllahə kanə bima təməlunə xəbira; vətəvəkkəl ələllahi və kəfa billahi vəkila)

**Ya Peyğəmbər! Allahdan qorx, kafirlərə və münafiqlərə itaət etmə. Həqiqətən, Allah (hər şeyi) biləndir, hikmət sahibidir! Rəbbindən sənə vəhy olunana (Qurana) tabe ol. Allah, şübhəsiz ki, nə etdiklərinizdən xəbərdardır! Allaha təvəkkül et. Allahın (bütün işlərdə sənə) vəkil olması kifayət edər! (Əhzab 1-3)**

Əziz iştirakçılara, qonaqlara xoş gəldiniz deyirəm. Bizi bu məclisə toplayan İslami oyanış prosesidir. Yəni məntəqə xalqları arasında böyük təbəddülat yaratmış, inqilablar ərsəyə gətirmiş oyanış və agahlıq gündəmdədir. Bu oyanış məntəqəyə və dünyaya hakim kəsilmiş şeytanların ağlına gəlmirdi. Bu əzəmətli dirçəliş istibdad sədlərini viran qoydu, onun mühafizlərini dizə çökürüb qəzəbə gətirdi.

Şübhə yoxdur ki, böyük ictimai təbəddülatlar daim tarixi, mədəni, mənəvi və təcrübi dayaqlara malik olur. Son 150 ildə Misir, İraq, İran, Hind, digər Asiya və Afrika ölkələrindəki böyük mütəfəkkir və mücahidlərin hüzuru hazırkı oyanış üçün bir zəmin olmuşdur.

Bu ölkələrdə miladi 50, 60-cı onilliklərdəki hadisələrin bir çoxu adətən materialist dünyagörüşü ilə müşayiət olunmuşdur. Təbii olaraq məntəqəyə qərb imperialistləri hakim kəsilmişdir. Burada hazırkı İslam dünyası üçün düşüncələri formalaşdıran ibrətamiz təcrübələr vardır.

İranda böyük İslam İnqilabı hadisəsi, böyük imam Xomeyninin təbirincə, qanın qılınca qalib gəlməsi ilə tamamlandı. Davamlı, iqtidarlı, cəsarətli İslam Respublikası təşkil olundu. Bugünki islami oyanışda həmin respublikanın təsiri ayrıca bir mövzudur. Dünya tarixində öz yeri olan bu hadisənin araşdırılmasının yeri var.

İslam dünyasında yüksələn xətlə inkişaf edən hadisələrin tarixi kökləri var və düşmənlər onu ötəri bir dalğa kimi dəyərləndirməkdə yanılırlar. Onlar çaşdırıcı və qərəzli araşdırmaları ilə xalqların ümid məşələni söndürmək istəyirlər.

Qardaşyana söhbətimdə üç nöqtə üzərində dayanmaq istəyirəm:

1.Qiyam və inqilabların mahiyyətinə xülasə baxış;
2.Bu yoldakı təhlükələr və böyük zərbələr;
3.Zərbə və təhlükələrin qarşısının alınması üçün təkliflər.

Birinci nöqtə ilə bağlı bunu deyə bilərəm ki, mənim nəzərimcə bu inqilablarda ən əsas ünsür xalqın meydanlarda iştirakıdır. Onlar təkcə qəlb, istək, imanla yox, mübarizə meydanında cihadla səslərini qaldırdılar. Belə xalq qiyamı ilə bir qrup hərbiçinin qiyamı arsında böyük fərq var.

50 və 60-cı onilliklərdə Afrika və Asiyanın bir çox ölkələrində xüsusi qruplar inqilab yükünü öz çiyninə aldı. Onlardan sonrakı nəsillər yolu dəyişdilər və inqilablar onların özünə qarşı çevrildi. Düşmən növbəti dəfə bu ölkələrə hakim kəsildi. Bu xalq hərəkatından fərqlənir. Bu gün meydanlarda

canını sipər edən xalqdır. Onlar öz cihad və fədakarlıqları ilə düşməni səhnədən çıxarırlar.

Bu qiyamlarda şüar yaradan xalqdır. Məqsədləri müəyyənləşdirən, düşməni tanıtdıran, onu təqib edən, gələcəyi müəyyənləşdirən xalq özüdür. Onlar düşmənlə sazişə, inqilab yolunun dəyişməsinə icazə vermirlər.

Xalq hərəkatında inqilabi hadisələrdə təxir ola bilər. Amma mahiyyət dərindir. Bu eynən Allahın buyruğunun bir nümunəsidir: **"Məgər Allahın necə bir məsəl çəkdiyini görmürsənmi? Xoş bir söz (la ilahə illəllah, Muhəmmədun rəsulullah) kökü yerdə möhkəm olub budaqları göyə ucalan gözəl bir ağac (xurma ağacı) kimidir." (İbrahim 24)**

Mən cəsur Misir xalqının Təhrir meydanındakı hərəkatını televiziyadan seyr edəndə əmin oldum ki, bu inqilab qalib gələcək. Düzü İranda İslam İnqilabının qələbəsi və İslam Respublikasının təşkilindən sonra yaranan böyük zəlzələ Şərq və Qərbdəki imperialistləri, həm də müsəlman xalqları hərəkətə gətirdi. Biz Misirin hamıdan öncə ayağa qalxacağını gözləyirdik. Misirin mübarizə, fədakarlıq yolu keçmiş, böyük mücahid və mütəfəkkir şəxsiyyətləri bizdə belə bir intizar yaradırdı. Amma Misirdən səs çıxmırdı. Mən qəlbimdə Misir xalqına müraciətlə Əbu Fərasın şeirini zümzümə edirdim: "Sənin göz yaşların müsibətlər qarşısında sipərdir və səbirli olmaq sənin imtiyazındır; Bəs aşiqlik necə, səni ayağa qaldırmırmı, əmr verib, qadağa qoymurmu?"

**(أَراكَ عَصِيَّ الدَّمعِ شيمَتُك الصبر/أَما لِلهوى نهىٌ عليك و لا امرٌ)**

Misir xalqını Təhrir meydanı və başqa şəhərlərdəki meydanlarda görəndə sualıma cavab aldım. Bu xalq qəlb dili ilə mənə cavab verdi: "Bəli, mən sənə məftun olmuşam. Eşq atəşi mənim üçün bir sirr saxlamayıb."

**(بَلى اَنَا مُشتاقٌ و عِندِىَ لَوعةٌ/ولكنَّ مِثلى لايُذاعُ لهُ سِرٌّ)**

Bu müqəddəs sir, yəni qiyam iradəsi tədricən Misir xalqının zehnində gücləndi, formalaşdı və tarixi bir gündə meydana çıxdı. Tunis, Yəmən, Liviya, Bəhreyn də bu

hökmdədir. **"Möminlər arasında elələri də vardır ki, Allaha etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi (bu yolda) şəhid olmuş, kimisi də (şəhid olmasını) gözləyir. Onlar (verdikləri sözü) əsla dəyişməzlər..." (Əhzab 23)**

Bu qəbil inqilablar öncədən qruplar və partiyalar tərəfindən hazırlanmış manifestlər yox, qəlblərin səsi ilə həyata keçir. Onların şüarları kütlələrin istəyidir. Bu hesabla aydın görmək olar ki, məntəqənin hazırkı inqilablarının mahiyyəti nədir. Onların istəyi izzət və şərəfin, kəramətin qaytarılmasıdır. Bütün bunlar uzun bir dövürdə azğın diktatorlar, ABŞ və Qərb imperializmi tərəfindən ayaq altına alınmışdır.

İslam bayrağını qaldırmaq xalqların etiqadından doğan qədim bir istəkdir. Ruhi aramlıq, ədalət, tərəqqi yalnız İslam şəriətinin kölgəsində əldə oluna bilər. Amerika və Qərb imperializmi ilə iki əsrə yaxın çarpışma bu məntəqə xalqlarına böyük zərbə vurmuşdur. Məntəqə xalqlarının kürəyinə xəncər kimi sancılmış saxta sionist dövlət, bu qəsbkar rejimlə mübarizə hələ də Fələstin xalqını tarixi yurduna qaytarmamışdır.

Əlbəttə ki, məntəqədəki inqilabların prinsip və şüarları ABŞ, Qərb və İsrailin xoşuna gəlmir. Onlar hər vasitə ilə inqilabların mahiyyətini inkar etməyə çalışırlar. Amma gerçəklik onlara qalibdir.

İnqilabların mahiyyətində əsas ünsürlərdən biri xalqın iştirakıdır. Xarici qüvvələr hər vasitə ilə çalışdılar ki, bu ölkələrdə öz muzdurlarını hakimiyyətdə saxlasınlar. Yalnız o zaman bu himayədən əl çəkdilər ki, xalq hərəkatlarının yatırılmasına zərrəcə ümid qalmadı. Onların özünü bu inqilablara şərik bilmək haqqı yoxdur. Liviya kimi bir ölkəyə Amerika və NATO-nun müdaxiləsi həqiqəti ört-basdır edə bilməz. NATO Liviyada böyük dağıntılar yaratdı. Onların müdaxiləsi olmasaydı inqilabın qələbəsi azca yubana bilərdi, amma əvəzində bu qədər dağıntı baş verməzdi. Görün nə qədər günahsız qadın və körpə qətlə yetirilib. Uzun illər boyu Qəzzafi ilə əlbir olmuş düşmənlər bu məzlum ölkənin işinə qatışmaq haqqına malik deyil.

Bu inqilabların həqiqi sahibi, gələcək yolu müəyyənləşdirən xalqın öz içindən çıxmış fədakar insanlar, mütəfəkkirlər olacaq, inşaallah.

Zərbələr və təhlükələr barədə nə deyə bilərik? Öncə qeyd edim ki, təhlükə olsa da ondan qorunma yolu da var. Təhlükə xalqları qorxutmamalıdır. Düşmənlər sizdən qorxmalıdır: **"İman gətirənlər Allah yolunda, kafir olanlar isə Şeytan yolunda vuruşurlar. O halda Şeytanın dostlarıyla (kafirlərlə) vuruşun! Şübhəsiz ki, Şeytanın hiyləsi zəifdir!"** (Nisa 76) Allah-Taala ilkin İslam dövrünün mücahidlərini yada salır: **"O kəslər ki, xalq onlara: "Camaat (Əbu Süfyan və tərəfdarları) sizə qarşı (qüvvə) toplamışdır, onlardan qorxun!" - dedikdə, (bu söz) onların imanını daha da artırdı və onlar: "Allah bizə bəs edər. O nə gözəl vəkildir!" – deyə cavab verdilər; Sonra da Allahın neməti və lütfü sayəsində özlərinə heç bir əziyyət toxunmadan geri döndülər və Allahın razılığını qazanmış oldular. Həqiqətən, Allah böyük mərhəmət sahibidir."** (Ali-İmran 173-174)

Heyrətlənib tərəddüd keçirməmək üçün təhlükələri tanımaq zəruridir. Onları tanıdıqdan sonra çarə qılmaq olar. Biz bu qəbil təhlükələrlə İslam İnqilabından sonra üz-üzə gəldik. Onları tanıdıq, təcrübədən keçirdik. Allahın istəyi, imam Xomeyninin rəhbərliyi və xalqın fədakarlığı sayəsində bir çox təhlükələrdən ötüşdük. Əlbəttə ki, fitnəkarlıqlar hələ də davam edir.

Mən bu təhlükələri iki qismə bölürəm. Birincisi kökü öz daxilimizdə olan təhlükələrdir. Bu bizim zəifliyimizdən qaynaqlanır. Düşmən bu sahədə layihələr həyata keçirir. Əvvəla diktator hakimin süqutu ilə belə bir fikir təlqin olunur ki, problem aradan qalxıb. Bununla da xalqı süstləşdirmək istəyirlər. Bu böyük təhlükədir. Bu təhlükə o zaman daha da böyük olur ki, insanlar qənimət payına ümid edirlər.

Ühüd savaşında qənimət sorağı müsəlmanları məğlubiyyətə apardı. Mücahidlər Allah tərəfindən qınandılar. Bütün bunları yaddan çıxarmaq olmaz. Başqa bir təhlükə imperialistlərin, Amerika və başqalarının zorundan qorxmaqdır. Fədakar insanlar bu qorxunu qəlblərindən silməlidir. Düşmənin

aldadıcı təbəssümü, qərəzli himayələri növbəti bir təhlükədir. İnqilab rəhbərləri diqqətli olmalıdır. Düşmən hansı libasda olursa olsun onu tanımaq, hiyləsini müəyyənləşdirmək lazımdır. Başqa bir təhlükə özünəarxayınlıq, düşməni lazımınca qiymətləndirməməkdir. Şücaət və tədbiri bir-birindən ayırmamalıyıq. Cin və insandan olan şeytanlar qarşısında ilahi vasitələri işə salmaq lazımdır. İnqilabçılar arasında ixtilaf yaratmaq, arxa cəbhədə fitnəkarlıq başqa bir təhlükədir.

İkinci qrup təhlükələri məntəqə xalqları müxtəlif hadisələr zamanı təcrübədən keçirib. Bu istiqamətdə ilk təhlükə Amerika və Qərbə bağlı ünsürlərin iş başına gəlməsidir. Qərb çalışır ki, diktatorların süqutundan sonra öz nüfuzunu qorusun və bir muzdurun yerinə başqa birini gətirsin. Belə olsa bütün zəhmətlər hədərə gedər. Onlar bu vəziyyətdə xalqın müqaviməti və agahlığı ilə rastlaşsalar başqa ssenarilərə əl atırlar. Bu ssenari Qərbə münasib hökumət modellərinin təklifidir. Onlar inqilabçılar, xalq, kütləvi informasiya vasitələrinə nüfuzla öz fikirlərini kürsüyə oturda bilərlər. Bu da Qərb istibdadının başqa formada qayıdışı, yeni model istismardır.

Bu taktika da nəticə verməsə hərc-mərcliyə, terrorizmə, vətəndaş müharibələrinə rəvac verirlər. Dinlər və millətlər arasında ixtilaf yaradır, qonşu dövlətlərlə münasibətləri gərginləşdirirlər. Embarqolar tətbiq edir, iqtisadi blokadalardan istifadə edirlər. Milli sərvətləri, bank hesablarını dondurur, təbliğat müharibəsi aparırlar. Bütün bunlarda məqsəd xalqın ümidini qırmaq, mübariz insanları süstləşdirməkdir. Xalq süstləşəndə inqilabın məğlubiyyəti asan olur. Nüfuzlu insanların terroru, onların şəxsiyyətinə qarşı müharibə, aparıcı insanların satın alınması düşmənin modern mübarizə üsullarındandır.

İran İslam İnqilabında mübarizlərin əlinə keçmiş casus yuvasından tapılan sənədlər göstərdi ki, bütün bu ssenarilər ABŞ tərəfindən proqramlaşdırılıb. Onların əsas məqsədi istibdad, muzdur hakimiyyəti geri qaytarmaqdır.

Sözümün son hissəsində İran İnqilabından və başqa ölkələrlə bağlı araşdırmalardan əldə olunmuş təcrübələr

əsasında bəzi tövsiyələrimi çatdırmaq istəyirəm. Şübhəsiz ki, bütün millət və məmləkətlərin şəraiti eyni deyil. Amma hamı üçün faydalı olacaq müştərək nöqtələr var.

Əvvəla Allaha təvəkkül, Quranın vədələrinə etimad, düşüncə və şücaətə güvənc ilə bütün maneələri aşmaq olar. Əlbəttə ki, sizin gördüyünüz iş olduqca böyük və tale yüklüdür. Deməк, böyük məqsəd uğrunda böyük zəhmətlərə qatlaşmaq da lazımdır. Əmirəlmöminin (ə) Nəhcül-Bəlağənin 88-ci xütbəsində bu yöndə tövsiyələri olduqca faydalıdır.

**: فانّ اللّٰه لم يقصم جبّارى دهر قطّ الّا بعد تمهيل و رخاء و لم يجبر عظم (**
**أحد من الامم الّا بعد أزل و بلاء و فى د ون ما استقبلتم من عتب و ما استدبرتم**
**من خطب معتبر)**

Mühüm bir tövsiyə budur ki, özünüzü daim meydanda görün: **“(İşlərini) Qurtaran kimi (Allah yolunda) çalış!”** (Şərh, 7) Həmişə Allahı hazır bilək: **“(Ancaq) Rəbbinə üz tut!”** (Şərh, 8) Qələbələrdən başımız gicəllənməsin: **“(Ya Peyğəmbər!) Allahın köməyi və zəfər (Məkkənin fəthi) gəldiyi zaman; İnsanların dəstə-dəstə Allahın dininə (islama) daxil olduqlarını gördüyün zaman; Rəbbini həmd-səna ilə təqdis et (Onu bütün naqis sifətlərdən uzaq tutub pak bil, “Sübhanəkə Allahümmə və bihəmdikə” kəlməsini de) və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!”** (Nəsr, 1-3) Bu ayələr mömin bir millət üçün əsil arxadır.

Başqa bir tövsiyəm inqilab prinsiplərinin qorunmasıdır. İnqilabın şüarları və üsulları İslam prinsiplərinə əsaslanmalıdır. İstiqlal, azadlıq, ədalət, təslim olmamaq, irqi və milli ayrı-seçkilərə yol verməmək, sionizmin qəti şəkildə rədd edilməsi bugünkü inqilabların sütunudur. Bütün bunlar İslam və Qurandan götürülüb.

Prinsiplərinizi kağız üzərinə yazın. Onları həssaslıqla qoruyun. Gələcək üsul-idarənizin necəliyini düşmən təyin etməsin. İslam prinsiplərini ötəri mənafelərə qurban verməyin. İnqilabların yolunu azması şüarlar və məqsədlərdə çaşqınlıqlardan başlayır. ABŞ və NATO, Britaniya, Fransa, İtaliya kimi cinayətkarlara, uzun zaman sərvətlərinizi

aralarında bölənlərə etimad etməyin. Onların məqsədlərinə şübhə ilə yanaşın, təbəssümlərinə inanmayın. Onların təbəssümü və vədləri arxasında fitnəkarlıq və xəyanət gizlənib. Problemlərinizi İslamdan bəhrələnməklə həll edin, düşmənin nüsxələrini rədd edin.

Başqa bir mühüm tövsiyə budur ki, dini, milli ayrı-seçkiliklərdən çəkinin. Xalq arasındakı fərqləri rəsmi tanıyın və onları tənzim edin. İslam məzhəbləri arasında anlaşma qurtuluş yoludur. Məzhəbi təfriqə alovunu qızışdıranlar bəzən özləri də bilmədən şeytana muzdurluq edirlər.

Üsul-idarə məsələsi böyük və prinsipial bir məsələdir. Dövlət quruculuğu çətin bir işdir. Layik, liberal, ifrat nasionalist, solçu marksist cərəyanlara yol verməyin.

Solçu şərq bloku süquta uğradı. Qərb bloku isə müharibələr, fitnəkarlıqlar yolu ilə özünü yaşadır. Zaman onların zərərinə, İslamın xeyrinə işləyir. Son məqsəd İslam vəhdəti, yeni İslam mədəniyyəti, təfəkkür, elm və əxlaq olmalıdır.

Fələstini vəhşi sionizmin cəngindən qurtarmaq böyük hədəfdir. Balkan, Qafqaz, Asiya ölkələri Sovetlər birliyinin əsarətindən qurtuldu. Nə üçün məzlum Fələstin 70 ildən sonra sionizmin zülmündən azad ola bilməsin?

Bugünkü İslam məmləkətlərində gənc nəsil böyük işlər görməyə qadirdir. Onlar ötən nəsillərin iftixarıdır. Ərəb şairləri bunu gözəl nəzmə çəkib: “Dedilər ki, Əbussəxr Şeyban nəslindəndir. Dedim ki, yox, and olsun ki, Şeyban ondandır. Bir çox atalar olub ki, övladlarına görə adları iftixara çatıb. Necə ki, Ədnan öz şərafət və böyüklüyünü Allah peyğəmbərindən əxz edib.”

**(وَ كَم اَبٍ  قالوا: ابوالصَّخر مِن شَيبان قُلتُ لَهُم /كلاّ لَعمَرى ولكن منهُ شيبانٌ
قد عَلاَ بِابنٍ ذُرى شَرَفٍ/كما عَلا برسول الله عدنانٌ)**

Gənc nəslə etimad göstərin, onlarda özünəinam hissini gücləndirin, təcrübələrinizi onların ixtiyarına verin. Burada iki mühüm nöqtə var. İnqilab edib azadlığa çıxmış xalqların əsas istəklərindən biri ölkənin xalq tərəfindən idarə olunmasıdır. Onların istədiyi demokratiya İslam demokratiyasıdır. Burada

rəhbərləri xalq seçir və meyar İslam şəriətidir. Bu prinsip müxtəlif ölkələrdə şəraitə görə fərqli şəkildə həyata keçə bilər. Amma diqqətli olmaq lazımdır ki, xalqın istəyini liberal qərb demokratiyası ilə səhv salmayaq. İslam demokratiyası dini dəyərlər və prinsiplərdən uzaq deyil. Layik qərb demokratiyasının dini demokratiya ilə heç bir müştərəkliyi yoxdur.

İkinci nöqtə budur ki, islamçılar firqələşməyə, cahilanə təəssübə, ifratçılığa yol verməməlidir. Dini ifratçılıq amansızlıqla yanaşıdır. Bu xüsusiyyətlər inqilabı əsil hədəflərindən uzaqlaşdırır. İfratçılıq həm də xalqı hərəkatdan ayırır və inqilabı məğlubiyyətə məhkum edir.

Sözümü xülasələşdirirəm. İslami oyanış haqqında söhbət qeyri-müəyyən, anlaşılmayan bir mövzuda söhbət deyil. Mövzu real, tarixi keçmişi olan, qiyamlar və inqilablarla yadda qalan bir mövzudur. Bu oyanış ən təhlükəli düşmənləri səhnədən çıxarmışdır. Amma yenə də görüləsi işlər var. Söhbətim boyu qeyd etdiyim ayələr kamil və faydalı göstərişlərdir. Bu həssas və tale yüklü dönəmdə onların əhəmiyyəti böyükdür. Ayələrdə Peyğəmbərə xitab olunsa da Allah hər birimizə müraciət edir. Bu ayələrdə təqva ilk göstərişdir. Sonrakı göstəriş kafirlər və münafiqlərə boyun əyməmək, ilahi vəhyə istinad etmək, Allaha təvəkkül və etimaddır.

Bir daha bu ayələri yada salaq:

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ يَا أَيُّهَا النَّبِيُّ اتَّقِ اللَّهَ وَلَا تُطِعِ الْكَافِرِينَ وَالْمُنَافِقِينَ ۗ إِنَّ اللَّهَ كَانَ عَلِيمًا حَكِيمًا * وَاتَّبِعْ مَا يُوحَىٰ إِلَيْكَ مِنْ رَبِّكَ ۚ إِنَّ اللَّهَ كَانَ بِمَا تَعْمَلُونَ خَبِيرًا * وَتَوَكَّلْ عَلَى اللَّهِ وَكَفَى بِاللَّهِ وَكِيلًا

Vəssəlamu ələykum və rəhmətullahi və bərəkatuh

17 sentyabr 2011

Biz bu gün müsəlmanların oyanışını müşahidə edirik. Həmişə demişik, yenə də təkid edirik ki, bu dövr İslam və müsəlmanların inkişafı, oyanışı, qələbəsi dövrüdür və bu, İslam Respublikasının bərəkəti, səmərəsidir.

# Birinci fəsil: İslam oyanışının zərurətləri

## *Maddi sivilizasiyaların xalqlara ağır yük olması*

Bu gün dünya maddi sivilizasiyadan qaynaqlanan ağır boyunduruqlardan təngə gəlmişdir və qurtuluş yolu axtarır. Bu gün sizin Misir və Tunis kimi bəzi İslam ölkələrində müşahidə etdiyiniz İslam oyanışı bəşəriyyətin mövcud durumdan cana yığılmasının bir nümunəsidir. Şeytanlar (insan şeytanlar cin şeytanlardan daha təhlükəlidir) xalqın həyatına hakim olduqda, onun ictimai həyatına, xüsusi həyatına, iqtisadiyyatına, dərkinə və baxışına müdaxilə edən dünya hegemonları insanları azğın yollara sürükləyirlər. Həyata qaranlıq çökür və bu ağır, qaranlıq mühit insanların fitrəti ilə uyğun olmadığından, nəhayət fitrət oyanır. Bu gün dünyada baş verən budur. Maddi güclərə əsir olan Qərb dünyası da bu hökmranlıqdan təngə gəlmişdir. Əgər biz müsəlmanlar İslamı düzgün tanıtdıra bilsəydik, əgər öz əməllərimizi İslamla uyğunlaşdıra bilsəydik, əmin olun ki, dünya bütövlüklə İslama yönələrdi. Zəiflik bizdədir, nöqsan bizdədir. Quran və Peyğəmbər (s) buyuruqlarının ilk ünvanları bizik; özümüzü islah etməliyik.

*Peyğəmbərin (s) doğum günündə hakimiyyətin məsul şəxsləri ilə görüşdə çıxış (21 fevral, 2011)*

## *Misirdə İslam hərəkatını gücləndirməyin zəruriliyi*

Bu gün Misirdə, Tunisdə və digər yerlərdə xalq səhnədədir. Bu yönəldilməlidir. Düşmənlər bu hərəkatı qeyri-islami hərəkat kimi göstərməyə çalışırlar. Bu yanlışdır; heç şübhəsiz, İslam hərəkatıdır. Misirin keçmişi də bunu göstərir, bu günü də. Xalqın şüarları, cümə namazında iştirakı da buna sübutdur. Buna görə, heç şübhəsiz, İslam hərəkatıdır; düşmənlər Misirdə, yaxud başqa yerlərdə bunun İslam hərəkatı kimi möhkəmlənməsinin qarşısını almağa çalışsalar da. Bu hərəkatı gücləndirmək lazımdır.

*İslam Birliyi Konfransının iştirakçıları ilə görüşdə çıxış (20 fevral, 2011)*

## Xalqların İslam hökmlərinə ehtiyacı

Bu gün xalqların İslam hökmlərinə ehtiyacı var. Bu gün nəinki müsəlman xalqların, hətta müsəlman olmayanların da İslam hökmlərinə ehtiyacları var. Xalqların böyük güclərin ağır zəncirləri altında əzilib əziyyət çəkmələri İslamdan uzaq düşmələrinə görədir. İslam oyanışı xalqları xilas edəcək. Odur ki, bu gün müxtəlif ölkələrdə ən ağıllı insanlar Quranın göstərdiyi İslam xəttinə üz tutmuşlar. Çünki bu, izzət və qurtuluş yoludur. Hal-hazırda İslam dünyası əmmaməlilərin, ruhanilərin, alimlərin, natiqlərin, vaizlərin, dini tələbələrin, məscid imamlarının, təbliğat, dəvət və din libasına bürünmüş bütün şəxslərin bütün varlığı ilə ifa edə biləcəyi rola ehtiyaclıdır.

*Mübarək ramazan ayı ərəfəsində ölkənin müxtəlif bölgələrinin ruhaniləri, məscid imamları və vaizləri ilə görüşdə çıxış (13 mart, 1991)*

## İslam əsasında cəmiyyət və mədəniyyət qurmaq

Bəllidir ki, İslamın ən böyük məqsədlərindən biri olan cəmiyyət və mədəniyyət qurmaq işinin düşmənsiz olması mümkün deyil. Erkən İslam çağında da İslam üsul-idarəsinin və İslam cəmiyyətinin təşkil edilməsi ilə düşmənçilik edildi. Bu gün də belədir. Bu gün İslam dünyasında müsəlman xalqlar özlərində İslama münasibətdə qürur ruhiyyəsi duyur, İslama görə iftixar hissi keçirirlər. İslam oyanışı real bir həqiqətdir - İslam ümmətinin düşmənləri istəsələr də, istəməsələr də! Bu yolla getmək üçün ölkələrin məsul şəxslərinin güclü iradəsi lazımdır.

*İslam İnqilabının Böyük Rəhbərinin mübarək Məbəs bayramında hakimiyyətin məsul şəxsləri ilə görüşdə çıxışı (24 sentyabr, 2003)*

## İmperializmin İslam dünyasının təbii və insani mənbələrinə göz dikməsi

On illər öncəki təlimlərin və onlara qayıdışın sayəsində müasir dövrdə İslam oyanışı başladı, tövhid bayrağı yenidən dalğalandı. Bu hərəkətin zirvəsi İslam dünyasının bu həssas nöqtəsində İslam Respublikasının təşkil edilməsi idi. Onda da bütün müsəlmanlar şəxsiyyət və izzət duydular. Biz bu gün, tənəzzül və süqutun başlandığı əsrlərdə İslam ümmətinin üzləşdiyi bir təcrübə ilə qarşı-qarşıya qalmışıq. Bu gün də bu hərəkəti beşikdə boğmaq üçün İslam ümməti əleyhinə müharibəyə başlayıblar. Bu gün də tamahkar və hegemon qüvvələr İslam dünyasının tükənməz təbii və insani ehtiyatlarına və əzəmətli qaynaqlarına tamah salıb (bunu özləri açıqcasına deyirlər) bir müharibəyə başlayıblar. Bu müharibənin hegemonluq tərəfindən olan bayraqları aldadıcı demokratiya və azadlıq bayrağıdır. Lakin məsələnin məğzi başqadır. Əsl məqsəd İslam ümmətinin başucalıq amilini, yəni İslamı məhv etməkdir. Əsl məqsəd müqavimət mərkəzini məhv etməkdir ki, bu regionda işğalçıların qarşısında heç bir maneə mövcud olmasın.

*Əziz İslam Peyğəmbərinin (s) risalət məqamına çatdığı mübarək Məbəs günü münasibətilə İslam İnqilabının Böyük Rəhbərinin hakimiyyətin məsul şəxsləri ilə görüşdə çıxışı ( 14 sentyabr, 2004)*

## İslam dünyası imperializmin əsas problemidir

Hegemonlar üçün əsas məsələ İslam dünyasıdır. Onlar bir milyarddan artıq cəmiyyəti olan, günün ehtiyacı sayılan maddi və təbii sərvətlərin böyük bir hissəsinə sahib olan və bu gün İslamın yeni ruhu, hərəkatı və oyanışı üzərində mücadilə aparan İslam dünyasını məhv etmək istəyirlər. Onların məqsədi İslam dünyasıdır.

*İslam İnqilabının Böyük Rəhbərinin Qurani-kərimin 21-ci beynəlxalq müsabiqəsində iştirak edən qiraətçilərlə görüşdə çıxışı ( 17 sentyabr, 2004)*

## *İslam oyanışı və İslam birliyi imperializmin hökmranlığına mane olur*

Şübhə etmək lazım deyil ki, imperialist dünya müsəlmanların oyanışını, İslam birliyini, bizim xalqlarımızın elm, siyasət və yenilik sahələrində inkişafını öz qlobal hökmranlığına maneə sayır və var-gücü ilə onunla vuruşur. Müstəmləkəçilik və modern müstəmləkəçilik dövrlərinin təcrübəsi biz müsəlman xalqların gözü önündədir. Postmodern müstəmləkəçilik dövrü olan bugünkü gündə o təcrübələrdən dərs almalı və növbəti dəfə düşməni öz taleyimizə hakim etməməliyik.

*İslam İnqilabının Böyük Rəhbərinin Böyük Həcc Konfransı münasibəti ilə müraciəti ( 9 yanvar, 2005)*

## *İslam dünyasına hökmranlığını möhkəmlətmək istəyən imperializm*

İndi İslam dünyasının bəzi nöqtələrində mübarizlərin fədakarlığı, rəhbərlərin qorxmazlığı və sədaqəti sayəsində İslam oyanışı öz dairəsini genişləndirib, bir çox İslam ölkələrində gəncləri, görkəmli şəxsləri və bütün xalqı meydana çəkdiyindən, hökmranlıq istəyində olanların qəddar siması bir çox müsəlman siyasətçilərə və rəhbərlərə aşkar olduğundan, imperializm başçıları İslam dünyasına hökmranlığı davam etdirmək və möhkəmlətmək üçün yeni üsullar axtarırlar.

*İslam İnqilabının Böyük Rəhbərinin Böyük Həcc Konfransı münasibəti ilə müraciəti ( 9 yanvar, 2005)*

## *Dünyanın hər yerində imperialist güclərin müsəlmanlara təzyiqi*

Görün bu gün dünyada müsəlmanlara qarşı necə rəftar edirlər! Daxili cəlladlar hər yerdə anlayıblar ki, imperializm müsəlmanların sıxılmasından və kütləvi surətdə qırğınından məmnundur. Odur ki, azad şəkildə müsəlmanlara zərbə vururlar. Bu, Qafqaz müsəlmanlarının vəziyyətidir. Bu, Bosniya və Herseqovina xalqının vəziyyətidir. Bu, Əlcəzairdə

inqilabçı müsəlmanların vəziyyətidir. Bu, Sudanda inqilabçı hökumətin vəziyyətidir. Bu, şərafətli və mücahid Əfqanıstan xalqının vəziyyətidir. Bu, məzlum Kəşmir xalqının vəziyyətidir. Bu, məzlum İraq xalqının vəziyyətidir. Dünyanın harasında müsəlmanlar beynəlxalq hegemonluğun və dünya imperialistlərinin xəbislikləri tərəfindən hansısa bir yolla zülmə məruz qalmır?! Müsəlmanların özlərinin dirənişindən, həmrəyliyindən, bir-biri ilə birləşməsindən, İslam cəmiyyətlərinin oyanışından və bütün dünyada əzəmətli İslam potensialını işə salmaqdan başqa çıxış yolu varmı?!

*Böyük Rəhbərin həzrət İmamın(r) vəfatının ildönümü mərasimində iştirak edən xarici qonaqlarla görüşdə çıxışı (3 iyun, 1992)*

## "İslam ümmətinin qəlbi Fələstin eşqi ilə döyünür!"

Fələstini işğal edənlər daim onun-bunun söhbətini ortaya atıb, İran İslam Respublikasının təhrik etdiyini deməsinlər. Heç kəsin təhriki lazım deyil. Bu gün İslam oyanışı sayəsində müsəlman xalqlar ayıqdırlar. Kiminsə onlara deməsi, həvəsləndirməsi və irəliyə aparması lazım deyil, özləri bilirlər. Bu gün Fələstin gəncləri meydandadırlar, yeni nəsillər izzət, səadət və müsəlmanlıq yolunun nə olduğunu anlayırlar. İslam dünyasının hər bir yerində ixlaslı insanların qəlbi onların xatirəsi ilə döyünür. Bu həmrəylik təkcə İrana məxsus deyil; Misirə də getsəniz belədir, Afrikaya da getsəniz belədir, Asiyaya da getsəniz belədir, Orta Şərqə də getsəniz belədir. Siz hansı İslam ölkəsinə getsəniz, hansı müsəlman məzhəbindən olsalar da, əgər məlumatlı və ixlaslı insanları görsəniz, ürəklərinin Fələstin və Fələstin xalqına eşqlə döyündüyünü görəcəksiniz.

*Böyük Rəhbərin xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışı (10 oktyabr, 1996)*

## *Müstəqil İslam hökumətindən qorxu hissi*

Biz nə üçün inqilab etdik? Nə üçün bu qədər insan öldürüldü? Biz bir günah etməmişdik ki, İraq bizim günahımıza görə hücum etsin. Hücum bundan ötrü idi ki, bir İslam hökuməti, müstəqil bir hökumət yaranmış, İslam dünyasında, İraqın özündə, ərəb ölkələrində, müsəlman ölkələrində oyanış dalğası baş qaldırmışdı. Onlar hamısı hiss etdilər ki, İslam oyanışı onlara da son qoya bilər, buna görə birləşdilər. Başqa sözlə desək, bizdə olan bir müsbət cəhətə görə bizə hücum etdilər, onlarda olan mənfi cəhətə görə yox. Sonra da 8 il təzyiq göstərib bütün bu əzəmətli enerjini xərclədilər. Lakin İranın bir qarış torpağını belə bizdən ala bilmədilər. Onlar istəyirdilər ən azı bütün Xuzistanı alsınlar. Əvvəldə deyirdilər ki, Tehrana qədər gedəcəyik. Amma əgər təkcə Xuzistanı da alsaydılar, onlar üçün bəs idi. Bu az deyildi!

*Tələbə nəşriyyələrinin baş redaktorları və məsul şəxsləri ilə sual-cavab toplantısında çıxış (23 fevral, 1999)*

# İkinci fəsil: İslam oyanışının yaranış amilləri

## İslam oyanışının yarandığı onillik

Şimali Afrikanın, Misirin, Tunisin və digər ölkələrin bugünkü hadisələri biz İran xalqı üçün başqa bir mənaya, xüsusi mənaya malikdir. Bu, həmişə İran xalqının Böyük İslam İnqilabının qələbəsi sayəsində İslam oyanışının yaranması deyilən məsələdir; həmin təsir bu gün özünü göstərir. Odur ki, bu onillik mühümdür.

*Tehranın cümə namazı xütbələri ( 4 fevral, 2011)*

## Oyadıcı hadisələr

Xoşbəxtlikdən oyadıcı hadisələr olmuşdur və var. Bu müxtəlif hadisələr, müxtəlif hücumlar, Amerikada şərafətli və əziz Qurana hörmətsizlikdən ibarət olan mənfur hadisə oyadıcı hadisələrdəndir. Bu, insanın qəflət yuxusuna getməməsi, yuxusunun ağırlaşmaması və öz ətrafından xəbərsiz qalmaması üçün çalınan zənglərdir. Bu böyük bir nemətdir. Tarix və inqilab boyunca bizdə belə hadisələr olmuşdur. Mömin, ağıllı və sayıq insanlar bundan istifadə etmişlər; düşmənlərin düşmənliyindən istifadə etmişlər.

*Xibrə Məclisi üzvləri ilə görüşdə çıxış (16 sentyabr, 2010)*

## İran xalqı İslam oyanışının öncülü kimi

Bizim xalqımız ayıqdır. Bizim xalqımız birdir. Bizim xalqımız dünya hadisələrini həvəslə və qayğıkeşliklə izləyir, İslam dünyasının işləri ilə maraqlanır, onlara münasibət bildirir. Bunun bir nümunəsi Qüds günü əzəmətli yürüşdür. Bütün ölkədə, bütün şəhərlərdə, hətta əksər kəndlərdə xalq toplanıb yürüş etdi, heç zaman görmədiyi və yaxından tanımadığı, lakin problemlərini öz problemi saydığı müsəlman qardaşlarının xeyrinə şüar səsləndirdi. Bu, imana görədir. Bu, İslam oyanışına görədir. Bu, böyük və mərhum İmamımızın bizi çatdırdığı yoldur. Biz bu yolla gedirik. İnsanın qarşı tərəfdəki geniş cəbhənin müxtəlif hissələrində müşahidə etdiyi

təhdidlər, müxalifətlər, ədavətlər, qərəzçiliklər və şərəfsiz əməllər bu xalqı haqq yoldan saxlaya bilməyəcək.

*Hakimiyyətin məsul şəxsləri və İslam ölkələrinin səfirləri ilə görüşdə çıxış (10 sentyabr, 2010)*

## İslam oyanışı - fikir və düşüncənin təzahürü

İslam oyanışının nümayəndələri bu gün İslam dünyasında terrorizmin simasını göstərən şəxslər deyillər. İraqda bu cinayətləri törədənlər, İslam dünyasında İslam adı ilə müsəlmanların əleyhinə fəaliyyət göstərənlər, müsəlmanlar arasında şiə-sünni, millətçilik zəminində ixtilaf yaratmağı özünün ən mühüm vəzifəsi seçən şəxslər heç zaman İslam oyanışının nümayəndəsi ola bilməzlər. Bunu hegemonçuların özləri də bilirlər. İslamı Qərb dünyasına mürtəce və dəhşətli qruplar formasında tanıtdırmağa çalışan şəxslər həqiqətin bundan fərqli olduğunu bilirlər. Bu gün oyanışını dünya hiss edən İslam fikir, dərin düşüncə və yeni söz İslamıdır; bəşər həyatının düyünlərini açmaq üçün çıxış yolları təqdim edən İslamdır, qapalı İslam deyil, gözübağlı İslam deyil, hər növ fikir azadlığından uzaq İslam deyil. Bunu hegemonçular anlayırlar.

*İslam İnqilabının Böyük Rəhbərinin hakimiyyətin məsul şəxsləri və xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışı ( 2 sentyabr, 2005)*

## İmam Xomeyni - İslam oyanışının nümayəndəsi

Bizim böyük İmamımızın məntiqi ağıl məntiqi, fikir məntiqi, aydın əməl məntiqi, insaniyyət, insani norma, insani əxlaq və əxlaqi dəyərlər məntiqi idi. Dünya bunu istəyir. İslam oyanışının nümayəndəsi bütün dünya ilə, hətta mömin və müsəlmanlarla da  qaşqabaqlı çöhrə ilə üz-üzə gələn şəxs deyil; bəzilərini kafir elan edən, bəzilərini millətçiliklə, bəzilərini tayfabazlıqla, bəzilərini bəhanələrlə hücuma məruz qoyan şəxslər deyillər. Bunların varlığı çox şübhəlidir. Ümumiyyətlə belə şəxslər varmı, yoxsa  İsrailin, Amerikanın və İngiltərənin casus şəbəkələrinin adamları belə fəaliyyət

göstərib dörd qafil insanı da öz fəaliyyətlərinə qoşa bilmişlər? Bu da inkarolunmaz bir faktdır. Başqa bir fakt da budur ki, Qərb dünyası özünün bütün qüvvəsi ilə İslam oyanışına qalib gələ bilməmişdir. Müxtəlif müsəlman bölgələrində İslamın əleyhinə, İslam Respublikasının əleyhinə, İslamın böyük rəhbərlərinin və islahatçılarının əleyhinə və İslam hökmlərinin əleyhinə bu qədər təbliğat apardılar, bu qədər muzdur yetişdirdilər, İslamı söymək, onun hökmlərini ittiham etmək üçün, hərbi üsuldan istifadə etdilər, iqtisadi üsuldan istifadə etdilər, qəribə və heyrətli şəkildə geniş media təbliğatı apardılar. Amma indiyədək bir şeyə nail olmamışlar. Müsəlman ölkələrində müsəlman gənclərin ən çox meyli İslama və İslam təfəkkürünədir. Bu şövq və eşq müsəlman xalqların qəlbində günbəgün artır.

*İslam İnqilabının Böyük Rəhbərinin hakimiyyətin məsul şəxsləri və xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışı (2 sentyabr, 2005)*

## İslam inqilabı İslam oyanışının müdafiəçisidir

Biz İslamın, müsəlmanların və İslam oyanışının tərəfdarıyıq, istismarçı qüvvələrin məzlum xalqların zəngin qaynaqlarının qəsbinə qarşı çıxırıq, müstəmləkəçiliklə və istismarçılıqla müxalifik. Bu təkcə dildə və sözdə deyil. Bizim etiqadımız budur. Bizim xarici siyasətimiz də budur və bu, qeyd etdiyim kimi, İslam Respublikasının təfəkkürünə əsaslanır.

*İslam İnqilabının Böyük Rəhbərinin Xarici İşlər Nazirliyinin məsul şəxsləri və İran İslam Respublikasının ölkə xaricindəki nümayəndəliklərinin başçıları ilə görüşdə çıxışı (16 avqust, 2004)*

## Mənəviyyat, ağıl və ədalət İslamı

Bizim İslamımız budur: mənəviyyat, ağıl və ədalət İslamı. İslamın adı ilə qane olmuruq ki, liberal İslamımız olsun, Qərbin və Amerikanın dəyərlərini yaysın, onların üsullarından istifadə etsin, müxtəlif sahələrdə onlarla həmrəy olsun və arabir Nüdbə duası da oxunsun. Biz mürtəce Taliban İslamını

da qəbul etmirik. Nəinki indi qəbul etmirik, o hərəkatın əvvəlindən qəbul etmirdik. Sizin aranızda ötən tarixə şahid olanlar var. Onlar inqilabdan öncəki dövrü xatırlayır, inqilabdan qabaqkı İslam cərəyanlarını tanıyır və mənim nə dediyimi bilirlər. Bu hərəkatın istiqaməti əvvəldən aydınlıq və məntiq istiqaməti, qapalılıqla müxalifət olmuşdur. Bu gün də bizim İslam təfəkkürümüzdə həmin istiqamət zəifləməmişdir, hətta gücləndirilmişdir. Biz bunların arasından öz düzgün yolumuzu seçmişik və irəliləyirik. Əsas işimiz budur. Bizim diplomatiyamız bu təməllər üzərində qurulmuşdur. Biz belə bir İslam istəyirik. Biz İslam Respublikasının möhkəmlənməsini, İslam oyanışını və məqsədlərimizin reallaşmasını istəyirik. Əsla istəmirik və yol verməsik ki, bizi hazırkı beynəlxalq qaydalarında əridib, kimliyimizi və şəxsiyyətimizi ortadan götürsünlər.

*İslam İnqilabının Böyük Rəhbərinin Xarici İşlər Nazirliyinin məsul şəxsləri və İran İslam Respublikasının ölkə xaricindəki nümayəndəliklərinin başçıları ilə görüşdə çıxışı (16 avqust, 2004)*

## İslam inqilabı ədəbiyyatında yeni məfhumlar

Bu gün İslama düşmən cəbhənin bütün fəaliyyəti dünyada İslam oyanışı hərəkatını boğmaq üzərində mərkəzləşmişdir. Hər yerdən artıq da İran xalqı və ölkəsi üzərində dayanırlar. Çünki İran xalqı dünyaya örnək verdi, öz düşüncələri və dünyada müsəlmanlar üçün ortaya qoyduğu yeni məfhumlarla, etdiyi fədakarcasına cihadla, inqilabın 24 illik ömrü boyunca iranlı kişi və qadının, gənc və qocanın göstərdiyi şücaətlə müsəlman xalqların diqqətini cəlb edib, İslam ölkələrində İslam oyanışı dalğasını yarada bildi. Bu səbəbdən, İslam oyanışının bu mərkəzi ilə hər yerdən və həmişəkindən daha artıq düşməndirlər. Bu düşmənliyi qərəzlə, xəbisliklə, yalan təbliğatla və qəzəbli kobudluqla ortaya qoyurlar. Məqsəd də İran xalqını və məmurları vahiməyə salmaq və hamını qorxutmaqdır. Onlar qürrələnmələrinə səbəb olan uğursuz təcrübələrindən istifadə edib bu qədər əzəmətli bir xalqı, bu

qədər möhkəm bir inqilabı və quruluşu öz önlərindən geri çəkilməyə vadar etmək istəyirlər.

*İslam İnqilabının Böyük Rəhbərinin İran İslam Respublikasının banisi həzrət İmam Xomeyninin (r) vəfatının 14-cü ildönümündə çıxışı ( 4 iyun, 2003)*

## *İslam təməllərinə və prinsiplərinə qayıdış istəyi*

Bu gün İslam dünyasında vəziyyət dəyişmişdir. Bütün İslam dünyasında İslam oyanışı hiss olunur. İslam dünyasının hər yerində müxtəlif mərhələlərdə olan əzəmətli hərəkat müşahidə olunur, izzət, inkişaf və tərəqqi amili olan İslam təməllərinə və prinsiplərinə qayıdış istəyi görünür. İslam dünyasının ziyalıları, alimləri və siyasi xadimləri bu hərəkatı gücləndirməlidirlər. Gənclər arasında İslam oyanışı hərəkatının İslam hökumətlərinin zərərinə olduğunu güman etmək yanlışdır. Xeyr, İslam hökumətləri İslam oyanışı sayəsində imperialist qüvvələrin onlardan aldığı izzəti özlərinə qaytara bilərlər.

*İslam İnqilabının Böyük Rəhbərinin İslam Peyğəmbərinin (s) doğum günü münasibəti ilə hakimiyyətin məsul şəxsləri və məmurları ilə görüşdə çıxışı (19 may, 2003)*

## *İnqilabın bahar mehinə bənzər yayılması*

İslam ümməti oyanış yelini hiss etmiş və İslam maarifinə qayıdış ətrini duymuşdur. Bunların hamısı siz xalqın böyük hərəkatından və bu okeanı təlatümə gətirib ürəkləri agah edən böyük və səmavi insandan - yəni əzəmətli mərhum İmamdan qaynaqlanır. Onlar da anlamışlar. Onların sizinlə, imamla, İslam inqilabı və İslam quruluşu ilə düşmənliyi ondan ötrüdür ki, burada bir bulağın qaynadığını və bütün İslam dünyasına sarı axdığını bilirlər. Dedilər ki, inqilabı ixrac etməyin. Biz dedik, məgər inqilab əmtəədir ki, insan onu ixrac etsin! İnqilab gözəl çiçək ətri kimidir; özü "ixrac" olur. İnqilab bahar mehi kimidir; tutqun və üfunətli fəzaları özü dəyişib yerbəyer edir. İnqilabı kimsə ixrac etməməlidir, inqilab özü ixrac olmalıdır!

*İslam İnqilabının Böyük Rəhbərinin müəllim və fəhlələrlə görüşdə çıxışı (30 aprel, 2003)*

## Hegemonluğun İslam hakimiyyəti ilə aşkar müxalifliyi

Bu gün İslam və Quran hakimiyyətinin düşmənlərinin vəziyyəti elə bir həddə çatıb ki, İslamla və İslam hakimiyyəti ilə müxalif və düşmən olduqlarını gizlətmirlər. Bir gün bunu gizlədirdilər. Bir gün iddia edirdilər ki, xalqlar nə istəyirsə, o da olsun. Bir gün deyirdilər ki, biz xalqın dininə, məzhəbinə, fikir və etiqadlarına qarşı çıxmırıq. Lakin zamanın ötməsi ilahi qanunların işləməsinə bais oldu. Bu xalqın oyanışı, İslam istəyi, səhnədə iştirakı, aktiv fəaliyyətləri hegemonluğu zəiflətmişdir. Onlar İslam hökuməti və İslam hakimiyyəti ilə müxalif olduqlarını açıq şəkildə deməyə, bunu etiraf etməyə məcburdurlar. Bu onların həyatında mövcud olan paradokslardan biridir. Bu, ilahi qanunların onları məcbur etdiyi məsələlərdən biridir.

*Həzrət Mehdinin (ə) doğum gününün ildönümündə Qum əhalisinin böyük toplantısında çıxış (19 fevral, 1992)*

## İslam İnqilabı və müsəlman cəmiyyətlərinin arzusunun reallaşması

Əgər bu sözlər nə zamansa şişirdilmiş və reallıqdan uzaq görünürdüsə, bu gün İslam inqilabının qələbəsini, hər yerdə müsəlmanların oyanışını, hegemonluğun və dünya super güclərinin mahiyyət zəifliyinin aşkarlanmasını nəzərə alaraq, daha təəccüb doğurmur. Yubanması mümkündür, lakin hökmən baş verəcək. Müsəlman xalqlar və müsəlman cəmiyyətlər hamıdan tez qurtulacaqlar.

*Əsirlikdən azad olmuş ruhani və hövzə tələbələri ilə görüşdə çıxış (27 oktyabr, 1990)*

## *İslam hər bir istismarçının qarşısında dayanacaq!*

İslam və İslam oyanışı hər bir istismarçının qarşısında dayanmışdır və dayanacaq. Hər hansı bir İslam hərəkatı əgər həqiqi olsa, böyük bir cəmiyyət olan dünya müsəlmanlarını özünə cəlb edəcək. Bu, böyük güclər üçün bir təhlükədir. Odur ki, beynəlxalq hegemonluq dünyanın müxtəlif yerlərində baş verən digər inqilablardan İslama arxalanan inqilablar qədər qorxmur. Bu gün təbii iqtisadi sərvətlər, strategiya və ictimai vəziyyət baxımından dünyanın ən həssas nöqtələrinin böyük bir hissəsi müsəlmanların əlindədir. Dünyanın üç böyük və mühüm qitəsinin - yəni Asiya, Afrika və Avropanın birləşdiyi nöqtələr müsəlmanların ixtiyarındadır. Ən mühüm neft mənbələri və dünyanın bir çox mənbələri müsəlmanların əlindədir. Bu gün hegemonçu dünya, qızıl və güc imperatorluqları bilirlər ki, əgər İslam dini müsəlmanların və İslam cəmiyyətlərinin ürəyində yenidən canlansa, onların istismarçılığa, hegemonluğa və dünyanın ikiqütblü olmasına dair maraqları təhlükəyə düşəcək.

*Məşhəd, Tehran şəhərlərinin və Kurdüstan vilayətinin əlaçı şəhid övladları və əlilləri ilə görüşdə çıxış ( 12 sentyabr, 1990)*

## *İslam inqilabı, dünya balansı və Şərq blokunun sıradan çıxması*

Böyük İmamımızın hərəkatı bu gün dünyanı böyük gərginlik sobasına atıb, Şərq və Qərbi öz ətraflarında fırladır. Dünyanın bu hadisələrinin bəzisi birbaşa, bəzisi isə dolayısı ilə bizim İslam inqilabımızla əlaqədardır. Bu gün ikiqütblü şəkildə formalaşmış dünyada bir qütbün dünyanın siyasi səhnəsindən çıxarılması və daha Şərq və Sosialist bloku adlı bir şeyin mövcud olmaması, kiçik ölkələrin, güclərin, hökumətlərin, müxtəlif xalqlar və rejimlərin münasibətlərindəki dünya balansının tamamən pozulması

İranda İslam və din inqilabının qələbəsi, müsəlmanların oyanışı və vicdanlarda dini hissin oyanması ilə əlaqədardır.

*Qum Elm Hövzəsi və Tehranın elmi mədrəsələrinin alimləri, müəllimləri və tələbələri ilə görüşdə çıxış (21 fevral, 1990)*

## *İslam Respublikası İran xalqının müqavimətinin şirin səmərəsi kimi*

Biz böyük xalqımızın müqavimətinin nəticəsini və şirin səmərəsini müşahidə etməkdəyik. O, İslam İranının möhkəmliyi, İslam İranının izzəti, regionda və hətta bu regionun xaricində müxtəlif hadisələrdə İslam İranının təsir gücüdür. Hiss edirik ki, iman və İslam bizə izzət verdi, bizə tərəqqi verdi, bizi amallarımıza yaxınlaşdırdı. İmanımızı nə qədər gücləndirsək, İslamın cəmiyyətdə və İslam dəyərlərinin öz aramızda həyata keçməsini nə qədər artırsaq, bu izzət artacaq, bu tərəqqi artacaq, maddi və mənəvi həyat düzələcək. Bu, gənclərin və xalqın iradəsindən, xalqın imanından asılıdır.

*Şərqi Azərbaycan əhalisi ilə görüşdə çıxış (18 fevral, 2011)*

## *İmam Xomeyni məktəbi və təfəkkürü dünyada təsirli amildir*

Bir nəfər təkbaşına meydana atıldı. Allah-Taalanın onun vücudunda yaratdığı və eləcə də sonradan əldə etdiyi xüsusiyyətləri sayəsində ona verdiyi əzəmətli cazibələrlə ürəkləri özünə sarı çəkdi, əl-ayaqları hərəkətə, beyinləri düşüncəyə vadar etdi və burada bu əzəmətli, beynəlxalq hərəkatı və dünyada İslam oyanışını vücuda gətirdi. Bundan sonra imamın yolu, imamın hikməti, imamın məktəbi və imamın təfəkkürü dünyada işlər görəcək və nəsillər onu təcrübədən keçirəcək.

*Böyük Rəhbərin Tehranda cümə namazı xütbələri ( 1 oktyabr, 1999)*

## *İslamın və inqilabın möcüzəsi*

Bu inqilabın düşmənləri və əleyhinə plan cızanlar getdikcə onun dünya miqyasındakı təsirlərinin zəifləyib unudulmasını gözləyirdilər. Lakin İslam dünyasında ilk növbədə nəzərəçarpacaq məsələ budur ki, İslam inqilabının qələbəsindən 18 il ötdükdən sonra düşmənlərin istəyinin və fikrinin əksinə olaraq, bu inqilaba, onun misilsiz və böyük tarixi təsirinə, yəni müsəlman ölkələrində İslam oyanışına diqqət günbəgün artır. Bunun özü İslam və inqilabın möcüzələrindən biridir.

*Böyük Rəhbərin Fitr bayramı namazında xütbəsi (10 fevral, 1997)*

## *İslam inqilabı və əsl İslamın dirçəlişi*

Həzrət İmam Xomeyninin rəhbərliyi ilə baş verən İslam inqilabı əsl Məhəmməd (s) İslamını dirçəltdi, dünyada dərin və sürətli hadisələrin başlanğıcı, böyük güclərin və imperiyaların süqutunun müjdəçisi oldu. Müsəlmanların oyanışı, özünəqayıdışı və müqaviməti bizim ilahi qüdrət və hikmətin gözəlliklərini müşahidə etməyimizə səbəb oldu. Dinin qələbəsinə, müsəlmanların imkanlılığına, saleh insanların varisliyinə, məzlum və məhrumların canişinliyinə dair Allahın qəti vədəsini dövrün sınaqlarının aynasında əminliklə dərk etdik, zühuru vəd olunmuş Mehdinin (ə) qiyamını və o həzrətin ümumdünya ilahi dövlətinin bərqərar olunmasını həqiqətən gözlədik.

*Pakistanda keçirilən seminara müraciət ( 10 may, 1992)*

## *İslam hərəkatlarının güclənməsi*

Ötən il baş verən mühüm hadisələrdən başqa biri müxtəlif ölkələrdə müsəlmanların oyanışı və İslam hərəkatlarının güclənməsidir. Ötən il bu barədə xəbərlər aldıq və əziz xalqımız bunları eşitdi.

*Böyük Rəhbərin Novruz bayramı münasibətilə müraciəti (21 mart, 1992)*

# Üçüncü fəsil: İslam oyanışının meyarları və əsərləri

## *İslam oyanışı hegemonluğun ifşaçısı və təhlükəsi*

Bu gün dünya hegemonluğu, dünyanın siyasi quldurları, fəsada və tənəzzülə qərq olmuş dəbdəbə və güc imperatorluqları İslamla və İslam quruluşu ilə düşməndirlər. Çünki onların ifşaçısı və təhdidi İslam və müsəlmanların oyanışıdır. Təbii ki, İslamın, İslam quruluşunun və İslam Respublikasının əleyhinə bacardıqları hər bir işi görəcəklər.

*Təlim və Tərbiyə Nazirinin və Tehran vilayətinin müəllim və şagirdlərinin beyət mərasimində çıxış (16 iyun, 1989)*

## *Haqq və batilin meyarı*

Siz görürsünüz ki, dünyanın bütün zalım qüdrətləri, ölkələrə müdaxilə etməklə və onların maraqları əleyhinə işləməklə məşhur olan, müstəmləkəçiliyi yaradan, qanlı müharibələr törədən, xalqları alçaldan, onların sərvətlərini mənimsəyən şəxslər, öz sözləri ilə desək, Livan məsələsində çıxış yolu tapmağa çalışırlar. Bu çıxış yolu nədir? Xalq, yoxsa hegemonların problemlərindən çıxış yolu? Çünki Livanda təkcə xalqın problemi yoxdur. Livanda xalqın oyanışına, əsl Məhəmməd (s) İslamı təfəkkürünün yayılmasına, xalqın cihada, mübarizəyə, sakit oturmamağa və xarlığı qəbul etməməyə dair etiqadından dolayı Amerikanın və mürtəce dövlətlərin də problemi vardır. Axtardıqları çıxış yolu kimin çıxış yoludur? Hegemonların probleminə çıxış yolu arayırlar, yoxsa xalqın? Haqq və batilin meyarı və əlaməti burada bilinir.

*Məzlum və Məhrumların Müdafiəsi və onlar üçün xidmət orqanları və təşkilatlarının əməkdaşları ilə görüşdə çıxış ( 4 oktyabr, 1989)*

## *Hegemonçu sistemin İslam oyanışına qəzəbi*

Hegemonçu sistemin, xüsusən də Amerikanın qəzəblənməsi bütün İslam dünyasında İslam oyanışının günbəgün artmasına görədir. Ümid bəsləmişdilər ki, İslam Respublikasının şüarları get-gedə dünyada köhnəlib təsirsiz olacaq. Lakin əksinə şahid oldular. Bunlar bütün dünyada müştaq insanların məşəli olan imamın vəfatı ilə İslam şüarlarının təsirsiz olub unudulacağına ümid bəsləmişdilər. Lakin gördülər ki, olmadı.

*İmam Hüseynin (ə) doğum gününün ildönümündə keşikçilər korpusu ilə görüşdə çıxış (1 mart, 1989)*

## *Zalım güclərin xalqların mənəvi və dini duyğularından qorxusu*

Bu gün hegemonçu qüvvələr rəqibsiz və müxalifsiz bir meydanda dördnala çapmalarına baxmayaraq, dünyada bir iş görə bilməmişlər. Ən böyük hegemon qüvvələr də xalqların mənəvi və dini duyğularından qorxurlar. Bu gün Amerikanın cilovsuz və rəqibsiz qüdrəti qarşısında dayanıb müqavimət göstərən və Amerikanı qorxudan yeganə amil insanların mənəvi oyanışıdır; xüsusən də İslam bölgələrində. Bir çox xalqların arasında görünən bu dini ruhiyyəni və mənəviyyata təmayülü siz yaratdınız. Sizin mübarizəniz yaratdı.

*Şəhid ailələri ilə görüşdə çıxış (9 oktyabr, 1991)*

## *"Böyük güclərin zoru günbəgün zəifləyir!"*

Allaha həmd olsun ki, biz üfüqü aydın görürük. Biz bu oyanışı mübarək oyanış sayırıq. Biz hiss edirik ki, böyük qüdrətlər günbəgün zəifləyir. Necə ki, bir böyük qüdrətin devrilməsi ilə dünya coğrafiyasının əzəmətli bir məcmusu məhv oldu. Dünyada bəlli şəkildə hökmranlıq edən həmin böyük gücdən bu gün əsər-əlamət yoxdur. Bu, dünyanın rəftarını bizə göstərir.

*Mübarək Məbəs bayramı İslam Respublikası quruluşunun məsul şəxsləri və Fəcr ongünlüyü mərasimində iştirak edən xarici qonaqlarla görüşdə çıxış ( 2 fevral, 1992)*

## *Qərbin təhqir və hökmranlıq tilsiminin sınması*

İslam dünyası öz yanmış və əziyyət görmüş çöhrəsində İslam oyanışı mehini hiss edir. İslam dünyasının hər bir yerində, xüsusən də mücahid və başıuca İranda, həmçinin Fələstində və Livanda onun əlamətlərini öz gözü ilə görür. Ümid çırağı hər yerdə gənclərin qəlbini aydınlaşdırmış, Qərbin təhqir və hökmranlıq tilsimini sındırmışdır. Bu imkan asan əldə olunmamışdır. Onun yolunda minlərlə insan həyatı fəda edilmişdir. Bundan sonra da yol uzun və çətin, lakin təhlükəsiz və tərəddüdsüzdür. Hal-hazırda Fələstin xalqı bu yolun açılmasında və gedilməsində böyük bir rolu öhdəsinə götürmüşdür. Hamı o məzlum, qorxmaz və ayıq xalqa kömək etməlidir. Digər xalq və dövlətlər qəhrəman Fələstin xalqına kömək etməklə bu yolda öz rollarını ifa edə bilərlər.

*Həcc mərasimində hörmətli Allah evinin ziyarətçilərinə müraciət ( 3 mart, 2001)*

## *Müqavimət və İslam mübarizəsinin genişlənməsindən yaranan qorxu*

Onlar öz təbliğatları ilə İmamı və inqilabın sütunlarını şübhə altına almaq istəyirlər. Səbəbi budur ki, onlar İslamdan və İslam inqilabından zərbə görmüşlər. Onlar dünyada İslam oyanışından təhlükə duyurlar, Livan və Fələstində İslam mübarizəsinin dirçəlməsindən, genişlənməsindən ciddi nigarandırlar. Odur ki, İslam təfəkkürünün kökünü qazmaq və öz təbliğatlarının zəhərli oxlarını İslama və dinə yönəltmək fikirinə düşmüşlər.

*İslam İnqilabının Böyük Rəhbərinin "Fələstin İntifazəsini Müdafiə" Beynəlxalq Konfransının açılış mərasimində çıxışı (24 aprel, 2001)*

## Fələstin İslam oyanışı hərəkatının əsas mehvəridir

İranda İslam inqilabının qələbəsindən və son iki onillikdə İmam Xomeyninin (r) hərəkatının genişlənməsindən sonra İslam regionunda bütün qüvvəsi ilə İslam oyanışı hərəkatı başlanmışdır. Bu gün bu hərəkatın əsas mehvəri Fələstindir.

Əqsa məscidi intifazəsi – müqavimət hərəkatı hətta Fələstinin coğrafi sərhədləri xaricində və Fələstin xalqından kənarda bütün müsəlman və ərəb xalqlarını səhnəyə çəkə bildi. İslam dünyasının qərbindən şərqinə qədər hər yerdə müsəlman xalqların milyonluq yürüşləri göstərdi ki, Fələstin xalqı onların müdafiəsinə arxalana və eyni zamanda müsəlmanların birliyinin yaranmasında böyük rol ifa edə bilər.

*İslam İnqilabının Böyük Rəhbərinin "Fələstin İntifazəsini Müdafiə" Beynəlxalq Konfransının açılış mərasimində çıxışı ( 24 aprel, 2001)*

## İslam oyanışı, Şərq və Qərbdə təlatüm

İslam oyanışı İslam dünyasının Şərq və Qərbini hərəkətə gətirmiş, onlarda kimlik və şəxsiyyət hissini yenidən oyatmışdır. İranda İslamın izzət və iqtidar bayrağı dalğalanmış, məzlum Fələstin xalqı İslam şüarını rəhbət tutub sionizmi məyusluğa və uğursuzluğa məhkum etmiş, müsəlman ölkələrində gənclər ideal tələblərlə meydana atılmış, dünyanın təcavüzkarları və hegemonları qarşısında böyük sədd yaratmışlar.

*Böyük Rəhbərin hörmətli Allah evinin hacılarına müraciəti ( 20 fevral, 2002)*

## İslamın Amerika və İsrailə ən böyük zərbəsi

Onların İslam yolunu seçmiş İranla düşmən olması ondan ötrüdür ki, burada ən böyük zərbəni İslamdan görmüşlər. Bu zərbənin digər ölkələrdə də təkrarlanması mümkündür; necə ki, bizim ölkəmizdə müsəlmanların oyanışı sayəsində İslam dünyasının oyanışı vücuda gəldi. Bu gün həqiqətən də Amerikanı və İsraili çox çıxılmaz vəziyyətdə qoymuş Fələstin

xalqının mühüm oyanışı İran xalqının oyanışından təsirlənmişdir.

İslam dünyasında Amerikaya, Amerikanın müdaxilələrinə və müxtəlif ölkələrdəki əlaltılarına qarşı nifrət hissi günbəgün artır, Xalqların İslamdan gələn izzətə təmayülü hər an canlanır və inkişaf edir.

*İslam İnqilabının Böyük Rəhbərinin Tehranda cümə namazı xütbələri (22 noyabr, 2001)*

## Müsəlman xalqların hegemonçulara nifrəti

Bir zaman beynəlxalq hegemonçular İslamdan bir əsər qalmadığını güman edirdilər. Dünyada yaratdıqları ehtiras selinə və batlağına arxalanıb güman edirdilər ki, müsəlmanların arasında İslam təlimlərindən, İslam ruhiyyəsindən, İslam qeyrətindən, İslam zahidliyindən və İslam məqsədlərindən bir şey qalmamışdır. Lakin sonra səhv etdiklərini gördülər. Əvvəla böyük İranda, bu şərəfli və fəxrli xalq arasında İslam iqtidarı bayrağının ucalması, ikincisi bütün İslam dünyasında İslam oyanışı onların yuxusuna haram qatdı, İslamın çox parlaq və güclü bir həqiqət olduğunu anladılar. Odur ki, İslama qarşı mübarizə aparırlar. Bu gün İslam dünyası və müsəlman xalqlar bu həqiqəti dərk etmişlər. Onların özlərində olan informasiyalar deyir ki, İslam ölkələrində Amerikaya, sionizmə, hegemonluğa və onun başçılarına nifrət var.

*İslam İnqilabının Böyük Rəhbərinin Fitr bayramı namazının xütbələri ( 6 dekabr, 2001)*

## Amerikanın regiondakı ağır vəziyyəti

İndi Fələstin məsələsi, İran İslam Respublikası məsələsi, İslam dünyasında İslam oyanışı, İraq məsələsi, Əfqanıstanın yarımçıq məsələsi (indi bunu belə adlandırırıq) Amerika üçün saysız problem yaratmışdır. Mərhum Hacı Şeyx Hüseyn Fazil Lənkəraninin sözü ilə desək, Amerika bir günbəz üstündə oturub əlində bir dəsmal qoz tutmuş şəxsə bənzəyir. İndi bu dəsmalın bir tərəfi açılıb və qozlar günbəzdən tökülür. O, günbəzin başında qozları tutmaq istəyir; biri bu tərəfdən

düşür, biri o tərəfdən. Əgər əl-ayaq atmaq istəsə, özü də düşəcək. İndi Amerikanın vəziyyəti həqiqətən belədir.

*İslam İnqilabının Böyük Rəhbərinin Qələm əhli birliyinin üzvləri ilə görüşdə çıxışı (27 yanvar, 2003)*

## İslam oyanışının geniş coğrafi əhatəsi

Bu gün İslam oyanışı İslam dünyasının şərqindən, ən azı Pakistandan Afrikanın şimalına qədər genişlənmişdir. Xalq İslamı istəyir və bunu aşkar söyləyir. Bu, Amerika üçün böyük təhlükədir. Onlar açıq şəkildə deyirlər ki, bizim maraqlarımız təhdid olunur. Doğru da deyirlər, maraqları təhdid olunur. Lakin bu maraqlar qanunsuzdur. Bəli, İslam oyanışı onların qanunsuz və istismarçı maraqlarına təhlükə yaradır. Bunlar İslam quruluşu ilə kəskin müxalifdirlər. Sionistlərin vəziyyəti də bəllidir. İslam quruluşunun yaranması ilə sionistlər məzlum Fələstin xalqının müqavimətinə yeni nəfəs və can gəldiyini duydular. İslam Respublikasını Fələstin xalqına silah yardımı etməkdə suçlayırlar. Bunların hamısı yalandır. Fələstin xalqının özü ayağa qalxmışdır. Sözsüz ki, onlar İslam hərəkatından təsirlənmişlər. Odur ki, sionistlər bu mərkəz nöqtə ilə kəskin problemdədirlər və ona qarşı çıxırlar.

*İslam İnqilabının Böyük Rəhbərinin İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışı ( 6 avqust, 2003)*

## Sionizmin siyasi İslam təfəkküründən qorxusu

Sionistlər Fələstində qoca, gənc, qadın, kişi və uşağın qanını tökür, evləri dağıdırlar. Amerika və İngiltərə İraqda silahsız nümayişçilərə hücum edir, evlərə girir, xalqın namusuna təcavüz edirlər. Hələ orada yaratdıqları alov sönməmiş İslam dünyasını başqa alovlarla müjdələyirlər.

Bu azğın və kobud rəftarlar qüdrətdən və özünəinamdan daha çox iztirab və qorxudan irəli gəlir. Onlar İslam oyanışını hiss edir və İslam hakimiyyəti düşüncəsinin genişlənməsindən böyük təhlükə duyurlar. Onlar İslam ümmətinin bir gün bütöv və ümidli şəkildə ayağa qalxmasından vahiməyə düşmüşlər.

*Böyük Rəhbərin hörmətli Allah evinin hacılarına müraciəti (28 yanvar, 2004)*

## İslam oyanışı dünyanın zorakı qaydalarını pozur

Zirvəsi məzlum Fələstin ölkəsi olan İslam dünyasının bəzi regionlarında saysız-hesabsız kişi və qadınlar İslam bayrağı altında, istiqlaliyyət, izzət və azadlıq şüarı ilə, canlarını fəda etməklə daimi qəhrəmanlıqlar yaratmış, imperializmin maddi qüvvələrini öz igidlikləri qarşısında xar etmişlər.

Bəli, İslam oyanışı imperializmin hesablarını pozmuş və hegemonçuların istədiyi beynəlxalq qaydaları dəyişdirmişdir.

*Böyük Rəhbərin hörmətli Allah evinin hacılarına müraciəti ( 28 yanvar, 2004)*

## İslam oyanışı mehi

Həcc ona görə müstəsna və misilsizdir ki, onda ürəklər və canlar cilalanır, hacıların hər biri öz iradəsi və tutumu qədərincə bu rəhmət yağışından bəhrələnir, müxtəlif xalqlardan, irqlərdən olan, fərqli iqlim və mədəniyyətlərdən çıxmış İslam ümmətinin nəhəng şəxsiyyəti onda daha artıq birliyə, şücaətə, ayıqlığa və agahlığa nail ola bilir. Bu, İslam dünyasının bugünkü böyük ehtiyacıdır.

İslam dünyası nəhayət əcnəbilərin siyasi və mədəni hökmranlığı ilə, onun maddi və bəşəri qaynaqlarının düşmənlərinin inkişafı, iqtidarı və hökmranlığının xidmətində durması ilə nəticələnən uzunmüddətli və zərərli zəifliyindən və yuxusundan sonra indi özünə qayıtmış, qarətçilərin və haramxorların qarşısında tədricən cəbhə qurmuşdur. İslam oyanışı mehi İslam dünyasının hər bir yerində əsmiş və İslamın əməl meydanına qədəm qoyması ilə ciddi bir istəyə çevrilmişdir.

*Böyük Rəhbərin hörmətli Allah evinin hacılarına müraciəti ( 28 yanvar, 2004)*

## *İslam oyanışının irəliləməsi və dərinləşməsi*

Bu gün otuz il öncənin əksinə olaraq, artıq sionizm rejimi məğlubedilməz bir kabus deyil; iyirmi il öncənin əksinə olaraq, Amerika və Qərb Orta Şərqdə dəlilsiz-səbəbsiz qərar verənlər deyillər; on il öncənin əksinə olaraq, nüvə texnologiyası və digər mürəkkəb texnologiyalar regionun müsəlman xalqları üçün əlçatmaz və əfsanə sayılmır. Bu gün Fələstin xalqı müqavimət qəhrəmanıdır; Livan xalqı təkbaşına sionizm rejiminin heybətini puça çıxaran və otuz üç günlük müharibənin qalibidir; İran xalqı zirvələrə sarı hərəkətin bayraqdarı və öncülüdür. İki əsr müsəlman xalqlarına və hökumətlərinə zalımcasına hökmranlıq edən, onların sərvətlərini talayan İslam düşməni cəbhəsi bu gün öz süqutunu və qarşısında müsəlman xalqların qəhrəmancasına direnişini görür. Qarşı tərəfdən, İslam oyanışı hərəkatı günbəgün irəliləyir və dərinləşir.

*Müsəlmanların rəhbərinin hörmətli Allah evinin hacılarına müraciəti (15 noyabr, 2010)*

## *İslam ümmətinin düşmənlərinin nigaranlığı*

Bugünkü dünyada İslam oyanışı dalğasının genişlənməsi İslam ümmətini yaxşı sabahla müjdələyən bir həqiqətdir. Bu güclü sıçrayışın başladığı 30 il öncə, yəni İslam inqilabının qələbəsindən və İslam Respublikası quruluşunun təşkil edilməsindən üzü bu yana bizim böyük ümmətimiz dayanmadan irəliləmiş, maneələri dəf və səngərləri fəth etmişdir. Hegemonluğun düşmənlik üslublarının mürəkkəbləşməsi və İslama qarşı böyük sərmayələr aparan fəaliyyətlər də həmin inkişaflara görədir. İslam təhlükəsinə dair düşmənin geniş təbliğatı, müsəlman firqələri arasında ixtilaf yaratmaq və firqə təəssübkeşliyini oyatmaq üçün tələsik işlər, şiədən sünni, sünnidən də şiə üçün yalançı düşmənlər düzəltmək, müsəlman ölkələri arasında təfriqə salmaq, ixtilafları sərtləşdirib düşmənçiliklərə və həllolunmaz qarşıdurmalara çevirmək səyi, gənclər arasında fəsad və pozğunluğun yayılması üçün təhlükəsizlik və casus şəbəkələrindən istifadə etmək – bunların hamısı İslam

ümmətinin oyanışa, izzətə və azadlığa doğru mətanətli hərəkəti və möhkəm addımları qarşısında tələsik və təşvişli reaksiyalardır.

*Müsəlmanların rəhbərinin hörmətli Allah evinin hacılarına müraciəti (15 noyabr, 2010)*

## Sükan hegemonçuların əlindən çıxmışdır!

İşin idarəsi böyük qüdrətlərin əlindən xaric olunmuşdur. İstər Asiya, istər Afrikada İslam dalğasının və İslam dirçəlişinin əleyhinə yönəlmiş bütün fəaliyyətlərə rəğmən, bu dalğa və oyanış günbəgün genişlənir və düşmən daha bir iş görə bilmir. Bu sizin inqilabınıza, mərdanə, mömincəsinə və qorxmaz qiyamınıza görədir. Onun bir nümunəsi Fələstin intifazəsidir. Bu işin cilovu böyük qüvvələrin əlindən xaric olmuşdur. Fələstin xalqı  küçələrdə və şəhərlərdə mühasirəyə alınmış və ən vəhşi düşmənlə qarşı-qarşıya dayanmışdır. Orada hər bir əsgər o fələstinlinin düşmənidir. Belə deyil ki, əsgər onların özündən olsun; mehribanlıqla, məhəbbətlə, gül verməklə və gül almaqla problemi həll edə bilsinlər. O əsgərin özü intifazə edən, müqavimət göstərən həmin fələstinli gəncin şəxsi düşmənidir. Belə bir xalq bağlı bir mühitdə, bu qədər iqtisadi problemlər, bu qədər xəsarət və şəhadətlər içində dayanmışdır və geri çəkilmir. Bu nəyi göstərir? Bu onu göstərir ki, işin sükanı hegemonçu və yekəxana güclərin əlindən çıxmışdır.

*İslam İnqilabının Böyük Rəhbərinin Qum əhalisi ilə görüşdə çıxışı  (9 yanvar, 2001)*

## İslam kimliyinin dirçəlişi

İslam Respublikası başdan ayağa beynəlxalq güclərin və kapitalistlərin, beynəlxalq istismarçı quruluş başçılarının onun üçün düzəltdiyi maneə və tələlərlə örtülmüş çətin yolu keçməklə, səkkiz illik döyüşdə və iyirmi illik siyasi, iqtisadi, təhlükəsizlik və təbliğat döyüşlərində qalib olmaqla ölkə idarəçiliyində, milyonluq kütlələrin səfərbərliyində, böyük hadisələrin proqnozunda, onlara qarşı tədbirdə və beynəlxalq məsələlərdə uğurlu iştirakda öz gücünü sübuta yetirə

bilmişdir. Qarşısında duran beynəlxalq zalım düşmənlərə və xaricdən heç bir siyasi və iqtisadi kömək almamağa rəğmən, quruculuqda, inkişafda və xarabalıqların təmirində öz bacarığını və yaradıcılığını hamıya nümayiş etdirmişdir. Bundan əlavə, müsəlmanların İslam kimliyinin dirçəliş əlaməti olan oyanış hərəkatını və müsəlman xalqların böyük addımlarını gücləndirmiş, sürətləndirmişdir. Bu gün İranda İslamın qələbəsi sayəsində İslam dünyasının hər bir yerində İslam oyanış dalğası artmaqda və güclənməkdədir.

*Hörmətli Allah evinin hacılarına müraciət (19 mart, 1999)*

## Güclü siyasi İslam istismarçı quruluş üçün böyük təhdiddir

Həmin imkanlı cəbhə bu gün İslam və İslam oyanışının onun üçün yaratdığı təhlükəyə qarşı olduqca həssasdır. Bu həssaslıq ondan irəli gəlir ki, İslamın bir əxlaq tövsiyəsi sərhədindən kənara çıxdığını və bir üsul-idarə yaradacaq ideoloji mövqedə olduğunu görür. İslam düşmənləri bu müqəddəs dinin bir inqilab, möhkəm və güclü bir quruluş yarada bildiyini gördülər. Gördülər ki, İslam bir xalqı özünə inandırıb, onları ruhi məğlubiyyət halından özünə arxalanmağa, özü və öz dini ilə qürur duymaq halına çatdırdı. İslamın bir xalqı qeyd etdiyimiz vasitələrdən heç birinin ona təsir göstərə bilməyəcəyi həddə qüdrətli və güclü edə bildiyini gördülər.

*Böyük Rəhbərin hakimiyyətin məsul şəxsləri və İslam Vəhdəti Konfransında iştirak edən xarici qonaqlarla görüşdə çıxışı (15 avqust, 1995)*

## İslam oyanışı hərəkatının genişlənməsi

Əgər siz Allah eləməmiş, məcburi müharibədə məğlub olsaydınız, yaxud torpağınızı əldən versəydiniz, İslam oyanışı dalğası dayanardı. Xalqlar sizin simanızda İslamı və İslam inqilabını təcrübə edirlər. Əgər siz ölkənizi belə abadlaşdıra bilməsəydiniz, dünyada izzətinizi qoruya bilməsəydiniz, İslam dalğası dayanardı. Əgər siz milli birliyinizi qoruya bilməsəydiniz, İran daxili ixtilaflara və müharibələrə düçar

olardı (bundan Allaha sığınırıq). İndi düşmənlər bu işi görmək istəyirlər, buna çalışırlar. Allah bilir ki, İran xalqının bu gün malik olduğu bu birlik düşmənin gözünə bir ox kimi batır və onu incidir. Düşmən istəyirdi ki, İran xalqı inqilabdan, yaxud müharibədən və ya İmamın vəfatından sonra parçalansın, daxili müharibə başlasın, bir-birlərini vursunlar, öldürsünlər. Sonra hegemonlar digər müsəlmanlara deyəcəkdi ki, bu İran xalqı, bu da İslam inqilabı - buyurun baxın.

*Böyük Rəhbərin həzrət İmam Xomeyninin (r) vəfatının ildönümündə pak məqbərədə çıxışı ( 4 iyun, 1995)*

## *İslam hərəkatı hegemonluq və istismara qarşıdır*

Düzdür, bir cəmiyyətin daxili zəifliyi düşmənin hücumuna şərait yaradır, amma həmin zəifliyi də düşmən öz vasitə və imkanları ilə sağlam bir cəmiyyətdə icad edir. Səhvə düçar olmamalıyıq. İslam cəmiyyətinin hərəkət istiqaməti, bu gün təəssüf ki, bütün İslam dünyasına əl uzatmış beynəlxalq hegemonluğun və istismarçılığın əks istiqamətində olmalıdır. Onlar İslamla düşməndirlər, müsəlmanların oyanışı ilə düşməndirlər, İslam İranı ilə İslama görə düşməndirlər. Onların bütün səyi budur ki, dünya boyu İslam hərəkatı tənəzzül etsin. Sözsüz ki, bu ədavətin başında zalım və təcavüzkar Amerika, arxasında isə İslama qarşı qədim düşmənliyi, maraq toqquşması olan və yaxud İslamdan qorxan bütün kiçik və böyük güclər durur. İslam İranı ilə düşmən olmalarının səbəbi budur ki, İslam oyanışı buradan başladı. Bu gün dünyanın müsəlman xalqları dünyanın harasında olsalar da, ümidlərini bu hərəkətdən və bu qalib inqilabdan alırlar, addımlarını möhkəmlədir və irəliləyirlər. Əgər burada İslamı məğlub edə bilsələr (bundan Allaha sığınırıq), dünya miqyasında İslam dalğası qarşısında özlərinin ən böyük qələbələrini əldə etmiş olacaqlar. Bu günün reallığıdır.

*Böyük Rəhbərin alim və ruhanilərlə görüşdə çıxışı (29 iyul, 1992)*

## *İslam dünyanı tutmaq istəyənlər qarşısında ən böyük maneədir*

Mənim hiss etdiyim və dəlillərin də təsdiq etdiyi budur ki, Amerika və onun əlaltıları öz ekspansionist siyasətləri qarşısında İslamı böyük maneə görürlər. Odur ki, yeni dünya düzənində və Amerika məntiqində İslamla mübarizə əsaslı və köklü bir məsələdir. Onlar İslamla mübarizə aparmağa qərar vermişlər. Dünyanın harasında müsəlmanlar ayağa qalxmışlarsa, İslam hərəkatlarını boğmaq və harada müsəlmanların qarşısında diktatura hökuməti və zalım qüdrət durmuşsa, o hökuməti və zalım qüdrəti qeyd-şərtsiz müdafiə etmək və həvəsləndirmək istəyirlər. Dildə ayrı cür danışırlar, lakin məsələnin mahiyyəti budur. Hegemonluq müsəlmanların bir olmasına dözmür, İslam duyğularının xalqların arasında inkişaf etməsinə dözmür; istər Asiyada olsun, istər Afrikada, xüsusən də Avropada. Bosniya-Herseqovina müsəlmanlarına nə edəcəklərini görəcəksiniz! Şübhəsiz, bir gün də Avropada Albaniya müsəlmanları və Avropa ölkələrində yaşayan digər müsəlmanlar acı talelərə və çətin sınaqlara düçar olacaqlar. Bu həmin siyasətdən irəli gəlir: islamofobiya siyasətindən. Afrikada İslam hərəkatları beynəlxalq hegemonluğun kəskin şəkildə nifrətinə məruz qalır. Harada İslam oyanışı hiss olunsa, bunlar ona qarşı həssaslıq göstərirlər.

*Böyük Rəhbərin həzrət İmamın vəfatının ildönümü tədbirində çıxışı (4 iyun, 1992)*

## *Amerikanın İslam fundamentalizmi qorxusu*

Amerikanın və mütəffiqlərinin Orta Asiyanın yeni müstəqil olmuş hökumətləri ilə sıx əlaqələri, onları İslam təmayüllərindən və fundamentalizm adlandırdıqları məsələdən qorxutmaları, hər yerdə İslam oyanışı qarşısında düşmən mövqeləri, bariz nümunə kimi Əlcəzairdə müsəlmanların qalib siyasi hərəkətinə qarşı mövqeləri, İraq xalqı ilə hiyləgər və xəyanətkar hərəkətləri, onları indiki qəmli və məzlum vəziyyətə salmaları, məhz İslam yönlü olduqlarına görə Sudan rəhbərlərinə qarşı inadlı düşmənçilik və dünya miqyasında onlarla digər nümunə ümumilikdə Amerikanın və digər

müstəmləkəçilərin İslam oyanışına və dünyanın müsəlmanlar tərəfindən İslam kimliyinin tanınmasına qarşı aşkar düşmənliyinin inkarolunmaz faktlarıdır.

*Hörmətli Allah evinin hacılarına müraciət (3 iyun, 1992)*

# Dördüncü fəsil: İslam oyanışının vəzifələri, üsulları və imkanları

## *"Müqavimət göstərmək lazımdır!"*

Məsələ təkcə İran məsələsi deyil. Bu gün İslam dünyası ayılmışdır. Bir zaman güman edilirdi ki, dünyanın zorluları, quldurları və müftəxorları – Amerika, yaxud keçmiş SSRİ nə istəsə, o da olacaq və siyasətçilərin onların istəyinə uyğun davranmaqdan başqa çarəsi yoxdur. Bu gün xalqlar arasında bu inam əsla yoxdur, siyasətçilərin və siyasi şəxslərin arasında da çox zəifləmişdir. Dayanmaq və müqavimət göstərmək lazımdır!

*Əzəmətli Peyğəmbərin (s) Məbəs günü münbasibətilə hakimiyyətin məsul şəxsləri ilə görüşdə çıxışı (31 iyul, 2008)*

## *İslam ümmətinin böyük cihadı*

Bu gün İslam dünyası öz qarşısında aydın üfüq müşahidə edir. Bütün dünyanı əlində tutmuş böyük düşmən və dünyanın müftəxor hegemonçuları bu gün müsəlman xalqların dirçəlişi və oyanışı qarşısında gücsüz qalmışlar, bütün yollar üzlərinə bağlanmışdır. Bu, Allahın vədini göstərir: "Allah Ona (Onun dininə) yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət, qüdrət sahibidir!"; "Biz istəyirik ki, yerdə zəif düşüb əzilənlərə mərhəmət göstərək, onları öndə gedənlər və varislər edək". Bunlar Allahın vədəsidir. Allah-Taala buyurub ki, Öz işində qalibdir (istədiyini edəndir). Bu ilahi vədələr müsəlmanların oyanışı və hərəkəti ilə tədricən özünü göstərir.

Müsəlman xalqlar qarşısında böyük bir cihad var. Bu cihad zəruri olaraq, hərbi cihad deyil; siyasi cihaddır, düşüncə cihadıdır, elm cihadıdır, ictimai və əxlaqi cihaddır. Böyük İslam ümməti tədricən bu cihadın müxtəlif cəhətləri ilə tanış olub və olur. Bu gün siz çox həssas olan Orta Şərq regionuna baxsanız, İslam ümmətinin inkişafını görərsiniz.

*Fitr bayramı münasibətilə hakimiyyətin məsul şəxsləri ilə görüşdə çıxış ( 3 oktyabr, 2008)*

## *Müsəlman xalqlar günbəgün daha ayıq!*

Şübhəniz olmasın ki, İran xalqının və İslam ümmətinin sabahı bu günündən dəfələrlə yaxşı olacaq; İran xalqının 30 il bundan öncəki zamanı ilə bugünkü zaman arasında – yəni inqilabın əvvəlindən bu günədək olan fərq qədər. Görün İran xalqı ictimai-siyasi, elmi, və digər sahələrdə nə qədər irəliləmişdir! Bilin ki, gələcək illərin inkişafı ilə bügünkü inkişaf arasında fərq daha artıq olacaq, xalq günbəgün inkişaf edəcək. İran xalqının bütün sahələrdəki hərəkəti dayanmaz bir hərəkətdir. İnşallah ilahi hidayətin, İslam və Quran hidayətinin düzgün xətti və doğru yolu üzrə irəliləyəcək. İran xalqının gələcəyi aydın gələcəkdir. Bu, İslam dünyasına və İslam ümmətinə təsir göstərəcək və inşallah müsəlman xalqları günbəgün daha da ayıq edəcək.

*Qum vilayətinin minlərlə Bəsic üzvü ilə görüşdə çıxış (24 oktyabr, 2010)*

## *Məzlumların müdafiəsi dini təşəbbüsdür*

Bu gün elə bir gündür ki, müsəlman xalqlar və dövlətlər təşəbbüsçülüyü ələ alıb böyük iş başlaya bilərlər. Məzlum Fələstin xalqına kömək, ayıq İraq xalqını müdafiə, Livanın, Suriyanın və digər region ölkələrinin sabitliyini və müstəqilliyini qorumaq ümumi vəzifədir. Siyasi, dini və mədəni şəxsiyyətlərin, milli adamların, gənclərin və universitet mənsublarının vəzifəsi isə digərlərindən daha artıqdır. İslam məzhəblərinin ardıcılları arasında birlik və həmrəylik, məzhəb və milliyyət ixtilaflarından çəkinmək bu şəxsiyyətlərin ən birinci şüarı olmalıdır. Elmi aktivlik, siyasi aktivlik, mədəni aktivlik və bütün qüvvələri bu əsas sıralarda səfərbər etmək onların dəvətinin sərlövhəsi olmalıdır.

*Əzəmətli Həcc konfransına müraciət ( 9 yanvar, 2006)*

## *Birlik – İslam ümmətinin şəxsiyyət və qüdrət amili*

Quran bizə vəhdəti tövsiyə etmişdir. Quran bizi təhdid etmişdir ki, əgər öz birliyinizi əldən versəniz, hörmətiniz, şəxsiyyətiniz və qüdrətiniz məhv olacaq. Bu gün təəssüf ki, İslam dünyasında bu acınacaqlı vəziyyət müşahidə olunur. Bu gün İslam dünyası əleyhinə aparılan təxribat çox ağır təxribatdır. Əgər hazırkı dövrdə İslam əleyhinə çox kəskin, planlı təxribatlar aparılırsa, bu İslam oyanışının düşmənləri qorxutmasına görədir. Beynəlxalq hegemonluq, İslam ölkələrinə tamah salanlar, İslam dövlətlərinin və hökumətlərinin işlərinə müdaxilə edənlər İslam ümmətinin birliyindən qorxurlar.

Dünyanın bir milyard yarıma yaxın əhalisi müsəlmandır. Onların yaşadığı yer bu torpağın ən əhəmiyyətli və ən dəyərli hissələrindən biridir. Bu ölkələrdə bu qədər təbii sərvətlər, bu qədər əzəmətli mədəni irs, bu qədər işgüzar və istedadlı insani resurs, Qərb məhsulları üçün böyük bazar, belə dəyərli neft və qaz vardır. Bunlar imperialist qüvvələri təhrik edir. Bunları tamamilə ələ keçirmək istəyirlər. Lakin İslam ümmətinin oyanışı buna mane olur. İslam ümmətinin birliyi bu düşmənlərin qarşısında ən böyük səddir. Odur ki, bu səddi qırmaq üçün bütün bacardıqlarını edirlər.

*İslam İnqilabının Böyük Rəhbərinin hakimiyyətin məsul şəxsləri və İslam ölkələrinin səfirləri ilə görüşdə çıxışı ( 26 may, 2005)*

## *İslam kimliyi və oyanışını qorumaq*

Bu gün düşmən öz məqsədlərini açıq şəkildə deyir. Açıq deyirlər ki, İslam oyanışına qarşıdırlar və onu məhv etmək istəyirlər. Açıq-aşkar söyləyirlər ki, Orta Şərqin xəritəsini dəyişmək istəyirlər. Orta Şərqin xəritəsini dəyişdirmək nə deməkdir? Mənası budur ki, beynəlxalq hegemonluğun aləti olan zalım sionistləri regionun sahibi etsinlər. Bu regionda sionistlərin istismar caynağında olmayan heç bir ölkə, dövlət, qüdrət və xalq olmasın. İslam ümməti bu məqsədlər qarşısında

dayanmalıdır. İslam Respublikasına qarşı da kəskin müxalif və düşməndirlər. Çünki İslam Respublikasında xalqın oyanışı, müqaviməti və söz birliyi var, İslam bayrağı bu ölkədə ucaldılmışdır. Əlbəttə, mən və siz də muğayat olmalı və büdrəməməliyik. Ehtiyatlı olmalıyıq ki, dünyanın gözəllikləri bizi aldatmasın, düşmənin hiyləsi və psixoloji müharibəsi bizə təsir göstərməsin. Biz öz birliyimizi günbəgün daha da möhkəmləndirməli və lazımsız işlərdən çəkinməliyik. Bu gün əsas məsələ İslam Respublikasının kimliyini və bu ölkənin İslam kimliyini qorumaqdır. İslam dünyasının və İslam ümmətinin gözləri bunun üçün nigarandır. Siz dünyaya bir örnək göstərə bilmisiniz. Düşmən bu örnəyi aşağılamaq istəyir. Məqsəd İranı yox, bütün İslam dünyasını məğlub etməkdir.

*Mübarək Məbəs bayramında İslam İnqilabının Böyük Rəhbərinin hakimiyyətin məsul şəxsləri ilə görüşdə çıxışı (24 sentyabr, 2003)*

## *İslamın dirçəldilməsi və onun İslam dünyasında tərənnümü*

**13 abanın (miladi** 4 noyabr) ilk mənası Amerika rejiminin İslam hərəkatı və İslam oyanışına qarşı tədbirindən ibarətdir. Onlar bilirdilər ki, əgər İslam müsəlmanların qəlbində dirçəlsə və onların əməlində təzahür olunsa, bu yalnız İrana məxsus olmayacaq və İslam dünyasını bürüyəcək; necə ki, inqilabın qələbəsindən sonra Fələstində, Livanda və bir sıra İslam və Ərəb ölkələrində həmin məsələ təcrübə olundu. Bir neçə il ötdükdən sonra İranda İslam hərəkatı yüksəldi. İnqilabın qələbəsindən bir qədər öncə 1978-ci il, 13 abanda şagirdlərin qətli hadisəsi baş verdi. Yəni yenə də arxasında amerikalıların təhlükəsizlik şəbəkələrinin durduğu rejimin kobud siması göründü. Bu da İslam hərəkatına qarşı heyvan kobudluğu ilə olan mübarizə idi. Həmin günlərdə ABŞ prezidenti və Amerika mediasının nümayəndələri İranı ideal bir nöqtə, sabitlik və təhlükəsizlik adası kimi yad edirdilər, bununla qürur duyurdular. İndi amerikalıların daim təkrarladığı insan

hüquqları və digər bu kimi məsələlərdən heç bir əsər-əlamət yox idi.

*İslam İnqilabının Böyük Rəhbərinin 13 aban hadisəsinin ildönümü münasibətilə tələbə və şagirdlərlə görüşdə çıxışı (4 noyabr, 2002)*

## İslam amalını həyata keçirmək üçün müqavimət

Bu gün İslam dünyasının oyanışı və İslam düşmənlərinin rüsvayçılığı baş vermişdir. Bu yolu davam etdirmək lazımdır. Bu yol bu xalqı öz həqiqi amallarına, yəni izzət, mənəviyyat, qüdrət, rifah və elmi əzəmət amallarının məcmusuna, bir xalq üçün ideal və sevimli olan məsələlərə çatdıra biləcək bir yoldur. Bu inqilabın və imamın övladlarının getdiyi doğru yol bizi oraya çatdıracaq. Lakin onun şərti müqavimət göstərməkdir. Müqavimət yolu itirməmək, maddi gözəlliklərə aldanmamaq, nəfsin istəklərinin əsiri olmamaq, əxlaqi və mənəvi əmrləri, vacibləri və İslam ədəb-ərkanını tərk etməmək, ləzzətlərə və eyş-işrətə üz tutmamaq deməkdir. Əsas məsələ budur. Sözsüz ki, ilk növbədə ölkənin birinci və ikinci dərəcəli məmurları, yüksək müdirlər və komandirlər bu məsələlərdə ehtiyatlı olmalıdırlar, sonra da Allah, xalq və tarix qarşısında İslam quruluşu və İslam amalının inkiaşaf iftixarını qorumaq istəyən möminlər.

*İmam Hüseynin (ə) doğum günü ildönümü münasibətilə İslam İnqilabının Böyük Rəhbərinin keşikçilər korpusu ilə görüşdə çıxışı (9 oktyabr, 2002)*

## Müsəlmanlar və dünyanın taleyinə təsir göstərmək hissi

Bu gün İslam oyanışı dalğası ciddi bir reallıq və inkarolunmaz faktdır. Bu gün müsəlmanlar hiss edirlər ki, dünyada bəşəriyyətin vəziyyətinə və öz talelərinə təsir göstərə bilərlər. Bu hiss xalqlarda müəyyən bir nöqtəyə çatdıqda təcəssüm olunacaq və reallığa çevriləcək. Bunu bilirlər və buna görə nigarandırlar.

*İslam İnqilabının Böyük Rəhbərinin İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışı ( 18 mart, 2002)*

## *İslamın qurtuluş gəmisinə minmək*

Bu gün İslam inqilabı, İslam oyanışı yeni bir fürsətdir. Tarix boyu bu fürsətlər yaranmış, lakin az olmuşdur. İslam tarixində də olmuş, lakin daha az olmuşdur. Əxlaqi və mənəvi dəyərlərin məhvi və müxtəlif maddi dalğalarla təlatümə gələn dəryada qəflətən bu xilasedici və möhkəm gəmi – İslamın kapitanlığı və Quranın rəhbərliyi ilə bu İslam gəmisi peyda olub, insanları özünə sarı dəvət etmişdir. Məsələ kiçik bir məsələ deyil. Bir xalq bu qurtuluş gəmisinə sığınıb. Digər xalqlar da gördülər ki, bir xalq İslamın qurtuluş gəmisinə minməklə tağutların və dünya hegemonlarının güc, fəsad və asılılıq boyunduruğundan necə xilas ola bilər.

*İslam İnqilabının Böyük Rəhbərinin mübarək Qədiri-Xum bayramında çıxışı (15 mart, 2001)*

## *İslam oyanışını İslam hakimiyyətinə yönəltmək vəzifəsi alimlərin öhdəsinə düşür*

Bu gün xoşbəxtlikdən İslam dünyasında böyük bir oyanış yaranmışdır. Bu oyanışı düzgün istiqamətə yönəltmək lazımdır. Bu məsuliyyət İslam dünyasının alimlərinin və mütəfəkkirlərinin öhdəsinə düşür. Elə etməlidirlər ki, bu oyanış İslam hakimiyyəti ilə nəticələnsin. Düzdür, bu iş çətindir. Siz nümunəsini Əlcəzairdə müşahidə etdiniz. Əlcəzairdə azad seçkilər keçirildi, hökumətdən tamamilə ayrı olan bir qrup qələbə çaldı. Seçkiləri icra edənlərin özləri məğlub oldular. Bunun özü seçkilərin düzgün keçirilməsinə dair ən yaxşı dəlil idi. Amma eyni zamanda bu seçkiləri pozdular. Bunun üçün səbəb də uydurdular. Deyirlər ki, bu, diktaturaya sarı gedəcək bir demokratiyadır. Halbuki onlar özləri ilə tərəfdaş olan digər ölkələrdəki diktaturaları tam qəbul etmişlər. Bəlkə İslam hökumətinin diktatura hökuməti olmadığını da bilirlər. Hər halda bir bəhanə göstərilməli idilər və o bəhanə budur. Onlar bu vəziyyətin digər İslam ölkələrində də təkrar olunmasını ehtimal edirlər. Odur ki,

ölkələrdə seçkilərin keçirilməsində BMT-nin iştirakını zümzümə edirlər. BMT Amerika deməkdir; yəni veto hüququna malik olan dövlətlər və ilk növbədə Amerika. Bunun mənası odur ki, əgər hansısa ölkədə İslamın seçki yolu ilə qələbə çalması ehtimal olunsa, Amerika zahirən qanuni bir yolla oraya müdaxilə etməli və buna mane olmalıdır. Müsəlmanlar belə bir təxribatın qarşısında dayanmalıdırlar.

*Şəfəq ongünlüyü mərasimində iştirak edən xarici qonaqlarla söhbət ( 3 fevral, 1992)*

## Oyanış, ümid və hərəkət – Amerikanı yerində oturtmaq üçün lazım olan amillər

Bu gün sərvəti çox, imkanları modern, texnologiyası və elmi mütərəqqi olsa da, dünya xalqlarını öz zoru ilə təhqir edən, zalım və təcavüzkar şeytan olan Amerika kimi zülmkar bir dövləti bizim İslam regionumuzda asanlıqla yerində oturtmaq mümkündür; bu şərtlə ki, müsəlman xalqlar öz gələcəklərinə ümidvar olsunlar, ürəkdən və ümidlə ayağa qalxıb hərəkət etsinlər. Xoşbəxtlikdən xalqlar çox oyanmışlar. Lakin söhbət təkcə oyanmaqdan getmir, oyandıqdan sonra hərəkət etməlidirlər və bu hərəkətin ümidvarlığa ehtiyacı var.

*Həzrət İmam Xomeyninin(r) tarixi hökmünün şərhi seminarında iştirak edən daxili və xarici qonaqlarla, xalqın müxtəlif təbəqələrilə görüşdə çıxış ( 2 mart, 1991)*

## İslam inqilabının həyata keçməsində özünüislah və bəndəliyin təsiri

İslamın əzəməti tarix boyu müsəlmanları yetişdirmiş və həqiqətən Allah bəndəliyi üçün hazırlamışdır. Əgər İran xalqı Allah bəndəliyinə hazır olmasaydı, bu əzəmətli hərəkatı yaradıb dünya müsəlmanları arasında İslam cəmiyyətinin örnəyi, hətta bütün məzlum xalqlar arasında mücahidlik, fədakarlıq, oyanış və agahlıq nümunəsi kimi tanınmazdı. Əgər bu gün də İran xalqı bu ağır əmanəti daşımaq və ideal məqsədə çatdırmaq istəyirsə, özünüislahdan başqa heç bir yolu yoxdur.

*Fitr bayramı namazının xütbələri ( 27 may, 1990)*

## İslam həyat tərzi xalqların haqqıdır!

Biz bütün dünyada İslam oyanışını müdafiə edirik, dünyanın müxtəlif yerlərində öz İslam həyatına və İslam mədəniyyətinə qayıtmaq istəyən müsəlmanları dəstəkləyirik; çünki haqq onlarladır. Bu gün dünyada eşidilənlərin hamısı eyni deyil, şüarların hamısı bir həqiqəti nəzərdə tutmur. Dünyada müsəlmanların işləri barədə yürüdülən mühakimələr hamısına qarşı eyni mühakimələr deyil. Lakin bizim üçün qəti olan məsələ müsəlmanların İslama qayıdışıdır. Bu gün dünya müsəlmanlarının İslamı və Quranı uca tutmağa haqları var; uca tutacaqlar da, İslam həyat tərzinə qayıdacaqlar da, çalışmaların və əzmələrin də heç bir faydası olmayacaq.

*Tehranın cümə namazı xütbələri ( 9 fevral, 1990)*

## Əqsa məscidi - mübarizə və oyanış mərkəzi!

Dünyanın müxtəlif bölgələrində İslam düşmənləri insan hürriyyətinin mərkəzi, onun Allahla rabitə yeri, zər və zor şeytanlarının şeytənətindən məlumat əldəetmə mərkəzi olan məscidlərə dərin nifrət və ədavətlə baxırlar, onların varlığı və fəaliyyətlərinə qarşı var gücləri ilə vuruşurlar. İndi müsəlmanların ikinci qibləsi və Allahın lütfü ilə oyanış və mübarizə mərkəzi də olan Əqsa məscidi mənfur sionistlərin hörmətsizliyinə məruz qalmışdır. Fransa və Hindistanda da məscidlər hörmətsizliyə məruz qalmış və uçurulmuşdur.

*Bəsic komandirlərinin ümumrespublika toplantısına müraciət ( 23 noyabr, 1989)*

## Erkən İslam çağı hadisələri - müsəlman xalqlar üçün nümunə

Baxın, erkən İslam çağı səhnəsi bizim üçün örnəkdir. İddia etmək istəmirəm ki, bizim bütün hadisələrimiz eynilə erkən İslam çağının hadisələrinə bənzəyir. Xeyr, dünya dəyişmişdir, məqsəd və formalar dəyişilmişdir. Lakin erkən İslam çağı çox mürəkkəb, sənətkarcasına işlənmiş və sistematik bir tablodur. İslam ümmətinin bu günədək və əbədi olaraq tarixi həyatının

müxtəlif hissələrini bu tablonun parçalarında müşahidə etmək olar. İnsan bu hissələrin hər hansı birini nəzərə alsa və öz dövrü ilə uyğunlaşdırsa, dərk edə bilər.

*İslam Vəhdəti konfransının iştirakıçıları ilə görüşdə çıxış ( 20 fevral, 2011)*

## *İslam vəhdətinin təsiri və xalqların həmdərdliyi*

İslam birliyinin ilk təsiri xalqların bir-birinin dərdinə şərikliyi olmalıdır; bir xalq sevinəndə digərləri də sevinsinlər, qəmgin olanda digərləri də qəmgin olsunlar, biri çətinlikdə olanda digərləri də ona şərik olsunlar, kömək istəyəndə kömək etsinlər. Bu bizim vəzifəmizdir. Bu zaman irəliləyiş olacaq. Biz Allahın vədini qəbul edirik, ona əminik və etiqadlıyıq: “Bizim uğrumuzda çalışanları (cihad edənləri) öz yollarımıza yönəldəcəyik”. Və Allah-Taala heç şübhəsiz, mömin xalqa kömək edəcək.

*İslam Vəhdəti konfransının iştirakçıları ilə görüşdə çıxış ( 20 fevral, 2011)*

## *Hökumətlərin xalqlarla birliyi – region problemlərinin həlli yolu*

Amerikanın Orta Şərq siyasətləri xalqların öz hökumətləri ilə qarşıdurmasına səbəb olmuşdur. Xalqlarla hökumətlər arasında uçurum yaranmışdır. Əgər xalqlar hökumətlərlə bir olsalar, heç bir qüvvə onlara hökmranlıq etməyə qadir olmaz, heç bir qüvvə xalqların qarşısında müqavimət göstərə bilməz. Bu gün bəzi İslam ölkələrində baş verənlər xalqların regionda, mübarizə səhnəsində, mübarizə meydanında fəaliyyətidir. Xalqlar səhnədə olduqda böyük güclərin silahı kütləşir, onlar xalqlara hegemonluq edə bilmirlər. Öz yaxınlarından, öz muzdurlarından olan bəzi şəxsləri xalqa hakim təyin edirlər. Onlar xalqa hegemonluq edirlər. Xalqlar səhnəyə gəldikdə və hökumətlər öz xalqları ilə bir olduqda isə, bu, həmin hökumətlərin möhkəmlənməsinə bais olur. Bu, region problemlərinin həlli yoludur.

*Peyğəmbərin (s) doğum gününün ildönümündə quruluşun məsul şəxsləri ilə görüşdə çıxış ( 21 fevral, 2011)*

## *İslam inqilabı qərbə ən böyük təhdid kimi*

Bu iyirmi illik dövrdə baş verənlər, hətta bütün problemləri ilə yanaşı müqəddəs müdafiə dövründəki quruculuq, abadlıq, təmir, maddi inkişaf, elmi inkişaf, universitetlərin və tədqiqat mərkəzlərinin genişləndirilməsi və sair baxımlardan, yəni bir xalq və onun gələcəyi üçün əhəmiyyətli olan bütün parametrlərdə görülən işlər son yüzillik dövrdən dəfələrlə artıq, irihəcmli və keyfiyyətlidir. Bu, beynəlxalq İslam hərəkatı ilə və müsəlmanların oyanışı ilə mübarizə aparan hegemonçu quruluş üçün təhlükəli deyilmi? Əlbəttə, təhlükəlidir. Ələbəttə ki, onun qarşısında dayanmalıdırlar. Əlbəttə ki, onunla mübarizə aparmaq üçün öz məclislərində büdcə ayırmalıdırlar. Amerika İslam Respublikası ilə mübarizə aparmaq üçün büdcə ayırdı. Bu, məsələnin görünən tərəfidir. Onların qəlbində olanlar, onların təhlükəsizlik tədbirləri və CİA-nın pərdəarxası işləri isə dəfələrlə artıqdır. Bu nə üçündür? Bu ona görədir ki, bu xalqdan, bu quruluşdan, bu ölkədən qorxurlar. Bilirlər ki, əgər bu ölkə həmin templə irəliləsə, inşallah, Allahın lütfü ilə inkişaf tempi daha da artacaq, müsəlman xalqlar canlı bir örnək əldə edəcəklər.

*Mübarək ramazan ayı ərəfəsində İslam İnqilabının Böyük Rəhbərinin ruhani və din təbliğatçıları ilə görüşdə çıxışı (14 dekabr, 1998)*

## *İslam oyanışı, hadisələri təhlil və dərk qabiliyyəti*

Bu gün İranda İslam Respublikasının təşkil edilməsindən və bir çox İslam ölkələrində İslam oyanışı hərəkatının çiçəklənməsindən sonra çox acı və şirin həqiqətlərin üzərindən pərdə götürüldü. İndi bütün İslam dünyasında əksər insanlar hadisələri dərk və təhlil etməyə qadirdirlər. Lakin qəbul etmək lazımdır ki, dünya miqyasında əsasən sionistlərin, onların qərbli həmkarlarının və bəzən hegemonçu dövlətlərin zahirən müsəlman olan muzdurları tərəfindən idarə olunan radio,

televiziya və mətbuat təbliğatının cadugər əlləri bir çox aydın həqiqətləri əksinə göstərir. Odur ki, İslam dünyasının problemlərini və həmçinin imkanlarını konkret şəkildə sıralamaq yaxşı olar.

*Həccin əzəmətli ibadət və siyasət konfransına müraciət (24 aprel, 1996)*

## *İslam inqilabı və İslam müqavimət özəklərinin yaradılması*

Dünyanın bir çox ölkələrində bu inqilabın vücuda gətirdiyi İslam kimliyi və İslam oyanışı hissi sayəsində bu gün İslam cəmiyyətləri fəaldırlar, güclüdürlər və özləri üçün gələcəkləri var. Əgər imkan verilsə, hökumət də qura bilərlər. Bu cəmiyyətlər İslamın müxaliflərini və düşmənlərini təhdid edir, Amerika və İslam düşmənlərini düşmən sayırlar. Bu məsələ hamıdan artıq dünya hegemonluğunu qəzəbləndirir. Əlbəttə, amerikalılar, yaxud onların əlaltıları, yaxud sionizm şəbəkəsi, dünyanın xəbər agentlikləri və mətbuatı inqilabın və İran xalqının əleyhinə yazmaq, yaxud danışmaq istəyəndə bəzi ittihamları sıralayıb deyirlər ki, siz insan hüquqlarına qarşısınız, qadın hüquqlarına riayət etmirsiniz, atom bombası düzəltmək istəyirsiniz və sair. Lakin bunlar zahiri məsələlərdir, bəhanədir. Məsələnin məğzi bu deyil. Məsələnin məğzi qeyd etdiyimdir. Bunlar deyirlər ki, siz nə üçün dünyanın harasında müsəlman varsa, onun özünü şəxsiyyət hiss etməsinə, oyanmasına, tələb etməsinə, müti, ram və bıçaq altında quzu halətindən çıxmasına səbəb olmusunuz?

*Böyük Rəhbərin cümə namazı xütbələri (9 fevral, 1996)*

## *Müsəlmanların rabitəsi İslam oyanışının şərtidir*

Müsəlmanlar bir yerə toplaşmağa, bir-biri ilə ünsiyyət və əlaqə qurmağa heç zaman bugünkü qədər ehtiyaclı olmamışlar. Müsəlmanlar uzun müddət yatmış, qafil olmuş, heç bir işıq olmamışdır, ayıq olmamışlar. Problemləri də olmuşdur, lakin oyanışa səbəb olacaq, o problemləri dərk edib,

çarə axtaracaqları həddə yox. Durğunluq dövrü olan həmin dövr ötdü. O zaman həcc toplantısının da onlar üçün faydası yox idi. Bir qrup yatmış insan, qəflət yuxusunda saxlanmış və öz vəziyyətindən qafil olan xalqlar çuvallarını həcc suyundan çıxarmaq və vaciblərini yerinə yetirib getmək barədə fikirləşirdilər.

*Böyük Rəhbərin həcc mərasimi üzrə məsul şəxslərlə görüşdə*

*çıxışı ( 28 aprel 1993)*

## Şiəlik İslam oyanışının avanqardıdır

Bu gün kin və ədavət məmurlarının, yaxud düşmənin zəhərli və muzdur qələmləri ən böyük İslam məzhəblərindən biri və bu gün İslam oyanışının avanqardı olan Şiə məzhəbinin etiqadları barəsində elə yalan və iftiralar yazmış və yaymışlar ki, bütün tarix boyu baş verənlərlə müqayisəyə gəlməz.

*Şeyx Müfidin minilliyi münasibətilə beynəlxalq konfaransa müraciət (17 aprel, 1993)*

# Beşinci fəsil: İslam oyanışı və təhlükələr

## *Tövhid və vəhdət bayrağının ucaldılması*

İranda İslam dövlətinin qurulması, bu ölkədə, bu həssas mərkəzdə və mühüm bölgədə tövhid bayrağının ucaldılması İslam ümmətini həvəsləndirdi və oyatdı, onları öz talelərinə və qüdrətlərinə ümidvar etdi, onlara özünəinam verdi. Bu oyanış və bu özünəinam düşməni mürəkkəb təxribatlara vadar etmişdir. Bu təxribatlar hazırda bizim önümüzdədir. Onlar bütün İslam dünyası ilə müxalifdirlər, İslamın təsirli olması ilə müxalifdirlər, İslam təlimləri ilə müxalifdirlər. Amerika prezidenti açıq şəkildə xaç müharibələrindən danışdı. İmperialist qüvvələr – Amerika və sionizm həmişə öz təbliğatları ilə mühiti zəhərləyir, İslam ölkələri və İslam hökumətləri arasında ixtilaf yaratmağa çalışırlar.

*İslam İnqilabının Böyük Rəhbərinin quruluşun məsul şəxsləri və İslam ölkələrinin səfirləri ilə görüşdə çıxışı ( 26 aprel, 2005)*

## *İnkişafda qürur və qəflət təhlükəsi*

Bu müddətdə bizim qarşılaşdığımız hadisələr – istər 1929-cu il qətnaməsi, istər Qurani-kərimə hörmətsizlik məsələsi, istər İslam Respublikasının əleyhinə açıq şəkildə ədavətli sözlər, istər şübhəsiz və aydın şəkildə hegemonçu düşmənlərin əli görünən 2009-cu il hadisələri - qarşı tərəfin bu tərəfin gücləndiyini hiss etdiyinə görədir. Bu tərəfdə vücuda gəlmiş bu qüdrət, qüvvə və möhkəmlik qarşı tərəfi qorxudur. Bu onların öz sözlərində də görünür, tez-tez deyirlər ki, əgər bu işi görməsək, İran Orta Şərqin birinci qüvvəsi olacaq; əgər bu işi görməsək, İranın Orta Şərqdə nüfuzu artacaq. Bu sözləri deyirlər - bu birinci məsələ.

İkinci məsələ budur ki, bu hadisələr bizi ayıq saxlamalıdır, mürgüləməməliyik, yatmamalıyıq, bizi yuxu tutmamalıdır. Əgər mənim təsvir etdiyim bu hadisələr, İslam cəbhəsində və İslam Respublikasının müqəddəs quruluşunda müşahidə olunan və günbəgün artan bu qüvvə, qüdrət və möhkəmlik bizi arxayın etsə, laqeyd etsə, bizim yuxulamağımıza səbəb olsa,

qürur və qəflətimizə bais olsa, təhlükəli olacaq. Bu təhlükəlidir. Bu oyanış siqnalı həmişə bizim qulağımızda səslənməlidir.

*Xibrə Məclisinin üzvləri ilə görüşdə çıxış ( 16 sentyabr, 2010)*

## Təfriqə imperializmin siyasəti kimi

Biz də anlamalıyıq; biz şiələr anlamalıyıq, bilməliyik ki, bugünkü imperializmin siyasəti şiələri qeyri-şiələrdən ayırmaq, müsəlman qruplarını bir-birindən uzaqlaşdırmaq, onları bir-birinin canına salmaqdır. Biz bu məqsədə kömək etməməliyik. Biz düşməni bu məqsədə çatmağa qoymamalıyıq. Bu həm bizim vəzifəmizdir, həm də qeyri-şiələrin, şiə olmayanların, İslamda qeyri-şiə cəmiyyətlərindən və məzhəblərindən olanların. Bunu hamı bilsin. Bu gün İslam İranında İslam iqtidarının və İslam izzətinin bayrağını ucaldan, əlində tutan və imperializmi aciz qoyan şiələrdir. Bu bir həqiqətdir. Bu 30 ildə İslam Respublikası quruluşu əleyhinə müxtəlif düşmənlər – hamısının başında Amerika və hamısından xəbis olan İngiltərə - tərəfindən aparılan bu təxribatlar onların qorxduğunu göstərir. Onlar İslam hərəkatından, İslam oyanışından, İslam dünyasının özünə gəlməsindən qorxurlar. Bilirlər ki, əgər İslam dünyası özünə gəlsə, ayılsa, müstəqillik hiss etsə, kimlik hiss etsə, izzət hiss etsə, dünyanın müsəlmanların əlində olan bu həssas regionu (dünyanın ən həssas regionu müsəlmanların yaşadığı bu regiondur) imperializmin hökmranlığından çıxacaq; bundan qorxurlar. Qorxduqları üçün də təxribat aparır, müxtəlif vasitələri işə salırlar.

*Qədiri-Xum bayramı münasibətilə xalqla görüşdə çıxış ( 6 dekabr, 2009)*

## İslam torpaqlarında fitnələrin planlaşdırılması və idarəçiliyi

Dünya müsəlmanları düşünsünlər ki, son illərdə İraqda, Əfqanıstanda və Pakistanda baş verən fitnələr, müharibələr, partlayışlar, terrorlar və qətllər necə və harada hazırlanır. Nə

üçün Amerikanın başçılığı ilə qərb qoşunlarının bu regiona təcavüzkarcasına girişindən öncə xalqlar bu müsibətləri və fəlakətləri müşahidə etmirdilər? İşğalçılar bir tərəfdən Fələstində, Livanda və digər yerlərdə olan xalq müqavimət hərəkatlarını terrorçu adlandırırlar, digər tərəfdən də bu regionun xalqları arasında vəhşicəsinə firqəçilik və millətçilik terroruna rəhbərlik edirlər. İslam oyanışının və xalqların müqavimət hərəkatlarının beynəlxalq zalımlar üçün həmin vəziyyətin davamını imkansız etdiyindən və şəhidliyin, Allaha sarı və Allah yolunda ucalmaq məsələlərinin İslam cihadı səhnəsində əvəzsiz bir amil kimi yenidən zahir olmasından sonra çarəsiz təcavüzkar hiyləgər üsullara əl atıb, tarixi müstəmləkəçiliyi yeni üsullarla davam etdirdilər. Lakin bu gün müstəmləkənin çoxsimalı divi İslamı dizə çökürmək üçün bütün gücünü işə salmışdır; hərbi gücdən, dəmir yumruqdan və aşkar işğaldan tutmuş, təbliğatın şeytan silsiləsinə, minlərlə yalan və şayiə maşınlarının işlədilməsinə qədər, rəhimsiz qətl və terror qruplarının koordinasiyasından tutmuş əxlaq fəsadı vasitələrinin genişləndirilməsinə, narkomaniyanın artırılmasına, yayılmasına və gənclərin əzmkarlığını, ruhiyyəsini və əxlaqını məhv etməyə qədər, eləcə də müqavimət mərkəzlərinə hərtərəfli siyasi hücumlardan tutmuş milliyyət qürurlarını, firqə təəssübkeşliyini oyatmağa və qardaşlar arasında düşmənlik yaratmağa qədər.

*İnqilabın Böyük Rəhbərinin əzəmətli həcc konfransına müraciəti (26 noyabr, 2009)*

## Beynəlxalq hegemonluq şəbəkəsi İslam hərəkatının qarşısında

İslam Respublikası quruluşunun düşməni beynəlxalq hegemonluq şəbəkəsi - yəni təkcə Amerika hökuməti yox, bu gün dünyanın hökumətləri gətirib-aparan zalım iqtisadi güc başçılarının məcmusudur. Demokratiya ilə məşhur olan ölkələrdə, Amerikanın özündə və sionizm şəbəkəsi ilə əlaqədə olan digər ölkələrdə (söz sahibi) bunlardır. Beynəlxalq hegemonluğun bu nüfuzlu və qüdrətli şəbəkəsi ilə əlaqəli olan hökumətlər İslam hərəkatı və İslam oyanışı qarşısında öz

maraqlarının təhlükəyə düşdüyünü, bu qeyri-qanuni maraqların təhdid olunduğunu görürlər. Düşmən onlardır. Düşmən bu xalqa qarşı bütün mümkün vasitələrdən istifadə etmiş, lakin bir iş bacarmamışdır.

*İslam İnqilabının Böyük Rəhbərinin Kazerun əhalisi ilə görüşdə çıxışı ( 6 may, 2008)*

## Təfriqə yaratmaq məqsədilə müqəddəsliklərə hömətsizlik

Amerikalılar İraqda öz maraqlarını ixtilaf yaratmaqda və xalqın içindən çıxmış hökuməti bacarıqsız göstərməkdə görürlər. Odur ki, ixtilaf törətməyə, tayfa müharibəsi yaratmağa çalışırlar. Son günlər Samirədə baş verənlər, bu faciəli hadisələr onların bir nümunəsidir. Onlardan öncə də müsəlmanların hisslərini coşdurmaq və digər siyasi məqsədlərindən ötrü əziz İslam Peyğəmbərinə (s) hörmətsizlik edildi, karikaturalar çəkildi. Hər iki iş eyni tipdəndir: baş verən çaxnaşmada düşünülmüş şəkildə öz məqsədlərinə çatmaq üçün xalqın müqəddəsliklərini təhqir etmək. Nəticə nə oldu? Bacarmadılar. Bu gün karikatura məsələsi İslam dünyasının ümumi hərəkəti və hegemonluğun pəncəsinə nifrət duyğusu ilə nəticələndi. Samirə məsələsi dünyanın bir çox yerlərində Şiə və Sünni birliyi ilə sona çatdı. Şiə və Sünni alimləri birgə bəyanat yaydılar, birgə məhkum etdilər. Buna əsasən, düşmən bacarmır. Düşmənin planları tanınmış və təkrar planlardır. İllərlə bu planlar üzərində işləyiblər. Lakin bu gün İslam dünyası oyaqdır. İslam dünyası oyaq olduğuna görə də bir iş görə bilmirlər. Əlbəttə, bu oyanışı qorumaq lazımdır. Şiə və sünni qardaşları bir-birinə yaxınlaşdırmaq lazımdır; İslam ümmətinin ürəklərini bir-birinə yaxınlaşdırmaq lazımdır.

*İslam İnqilabının Böyük Rəhbərinin ölkə valiləri ilə görüşdə çıxışı ( 27 fevral, 2006)*

## İslam oyanışı hərəkatının yatırılması

**Əsas** məqsəd İslam dalğasını yatırtmaq və İslam dəyərlərini yenidən təcrid etməkdir. Amerikanın və digər istismarçıların bütün təbliğat və siyasət maşınları bu gün İslam oyanışı hərəkatını geçikdirmək, bacardıqları təqdirdə isə məhv etmək üçün işə salınmışdır.

*İslam İnqilabının Böyük Rəhbərinin əzəmətli həcc konfransına müraciəti ( 9 yanvar, 2006)*

## İslam oyanışının bir saylı düşməni

İslam oyanışının, İslam təmayülünün, azadlıq istəyinin bir saylı düşməni hegemonçu qüvvələrdir. Səbəbi də bəllidir. Çünki İslam hegemonluğa qarşı çıxır; xalqların əcnəbi qüvvələrdən asılılığına qarşı çıxır; uzun illər boyunca müsəlman ölkələrinə məcburən yeridilən elm və əməl geriliklərinə qarşı çıxır; xalqların təqlidçiliyinə və kor-koranə şəkildə digərlərinə baxmasına qarşı çıxır. Bunların hamısı müstəmləkəçi və hegemonçu siyasətin tam qarşı tərəfidir. Bu işlər iki yüz il, yaxud daha artıq müddətdə hegemonçular və qərblilər tərəfindən İslam dünyasında icra olunmuşdur. Bu gün də bu regionda özləri üçün bəzi maraqlar nəzərdə tutublar. İslam oyanışı onların istəklərinin tam qarşı tərəfidir. Odur ki, bütün varlıqları ilə ona qarşı çıxırlar, siyasi və təbliğat işlərində müxalifətçilik edirlər.

*İslam İnqilabının Böyük Rəhbərinin quruluşun məsul şəxsləri və xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışı ( 2 sentyabr, 2005)*

## İslam quruluşu qarşısında təhdidlər

Dünyanın hazırkı hadisələrinə uyğun olaraq deyilməsi nəzərə çarpan məsələ budur ki, İslam quruluşu yarandığı zamandan böyük beynəlxalq problemlərlə üz-üzə olmuşdur. Səbəbi bu idi ki, dünyada öz maraqlarını düşünən pul və güc sahibləri onların qanunsuz maraqlarının ziddinə olan yeni bir qüvvənin yaranıb inkişaf etməsinə dözmürdülər. Bu qüvvə

İslam inqilabının qələbəsi və İranda İslam quruluşunun təşkil edilməsi ilə yarandı. Təkcə İslam hökumətinin və quruluşunun özü yox, bəlkə də hegemonluq üçün daha mühüm və daha təhlükəli olan İslam dünyasında İslam oyanışının genişlənməsidir. Bu təhlükə bu gün hegemonluğu təhdid edir və onun düşmənçiliklərini İslam dünyasına, xüsusən də İslam dünyasının mərkəzinə, yəni İslam quruluşuna doğru yönəldir. Bu qaçılmaz idi. İlk gündən bu düşmənlik müxtəlif formalarda mövcud olmuşdur. Bu gün hegemonluq tərəfindən, dünyanın hakim və silahlı cəbhələri, yəni küfr və imperializm dünyası tərəfindən İran əleyhinə düşmənçilik haqda elə danışılır ki, sanki bu günə məxsusdur. Bu düzgün deyil. İnqilabın əvvəlindən İslam quruluşuna və İran İslam ölkəsinə qarşı müxtəlif formalarda təhdidlər mövcud olmuşdur. Bəzən bizim ölkəmizdə bu düşmənçiliklərin nümunələri və təsirləri bu günkündən daha çətin və daha qabarıq olmuşdur.

*İslam İnqilabının Böyük Rəhbərinin Xibrə Məclisinin üzvləri ilə görüşdə çıxışı (10 sentyabr, 2003)*

## Siyasi İslam və güşənişin İslam

İmam əməli surətdə göstərdi ki, siyasi İslam elə mənəvi İslamdır. Müstəmləkə dövründə İslamın və İslam xalqlarının oyanışının düşmənləri mənəvi və əxlaqi İslamı siyasi İslamdan ayırmaq üçün təbliğat aparırdılar. Bu gün də onu təbliğ edirlər. Bu gün də düşmənin və İslam quruluşunun düşmən cəbhəsinin təbliğat maşınları müxtəlif növlü təbliğat vasitələri ilə siyasi İslamı, ədalətsevər İslamı və ictimai İslamı dünyada kobud sima kimi tanıtdırmağa və xalqı təcrid olunmuş İslama, təslimçi İslama, işğalçı və hegemonçu qarşısında heç bir reaksiya göstərməyən İslama sövq etməyə çalışırlar.

*İslam İnqilabının Böyük Rəhbərinin İran İslam Respublikasının banisi həzrət İmam Xomeyninin (r) vəfatının 14-cü ildönümündə çıxışı ( 4 iyun, 2003)*

## *Amerikanın İslam xalqları ilə ikili rəftarı*

Bir neçə ay bundan əvvəl bir Amerika politoloqu öz tövsiyələrində Amerika hökumətinə demişdi ki, İslam ölkələrində demokratiya yaratmaq üçün əsla tələsmək lazım deyil. Çünki əgər bu gün hər hansı bir İslam ölkəsində azad seçkilər keçirilsə, İslam hökumətləri və İslam hərəkatları iş başına gələcəklər. Xalq bunları istəyir. Bu çox maraqlı etiraf və çox əhəmiyyətli bir sözdür. Deyir ki, İslam ölkələri üçün demokratiya tezdir. Bu söz və bu iddia göstərir ki, İslam oyanışı və İslama qayıdış təfəkkürü (onun mərkəzi İslam Respublikasında və siz xalqın arasında olmuşdur) yayılmış və bütün dünyaya çatmışdır. Bu, kiçik dəyər deyil. Bu toxum artıq səpilmişdir. Əgər beynəlxalq güc mərkəzləri və hegemonçu qüvvələr bu toxumun bitməməsini istəsələr, nə etməlidirlər? Onun ən təbii yolu budur ki, bu toxumu suvaran coşqun bulaqlarla mübarizə aparsınlar. Bu da hegemonluğun İslam Respublikası ilə və bizim ölkəmizlə düşmənçiliyinin səbəblərindən biridir. Bunun izahı sonraya qalsın, çünki hələlik bizim söhbətimiz Amerika barəsindədir.

İslam İnqilabının Böyük Rəhbərinin Şəhid Behişti Universitetinin tələbələri ilə görüşdə çıxışı (12 may, 2003)

## *Sionizmin lənətlənmiş ağacı müsəlmanların evində*

Düşmən Fələstini bütövlüklə İslam dünyasından ayırmaq və sionizmin lənətlənmiş ağacını müsəlmanların evində həmişəyaşar etmək fikrindədir. Amerika işğalçı rejimi möhkəmlətməklə bu həssas regionda bütün həyat ipuclarını əlinə almaq, özünü Orta Şərqdə və Afrikada İslam oyanışının nigaranlığından xilas etmək istəyir. İslam düşmənləri özlərinin İslamla qədim ədavətlərini və son illərdə müsəlmanların oyanışı səbəbindən gördükləri məğlubiyyətləri burada kompensasiya etmək istəyir. Bu hadisə Orta Şərqə dair son bir neçə ildəki təxribatların heç biri ilə müqayisə olunası deyil. Burada söhbət bir ölkənin işğalından, bir xalqın davamlı və əbədi didərginliyindən, İslam dünyasının bir parçasının, böyük İslam vətəninin coğrafi mərkəzinin və müsəlmanların ilk qibləsinin əsarətindən gedir.

*Müsəlman xalqlara, alimlərə, yazıçılara, ziyalılara və müsəlman ölkələrin tələbələrinə müraciət (17 oktyabr, 1991)*

## *Böyük şeytanın İslam ölkələrinin sərvətlərini istismar etməsi*

Son söz böyük şeytanın İslam ölkələrinin sərvətlərini günbəgün artıq istismar etməsi və onun bu ölkələrdə daha artıq siyasi, iqtisadi, hətta hərbi aktivliyindən ibarətdir. Bu zalım və istismarçı böyük qüdrət ateist-kommunist quruluşlarının dağılması və sovetlərin Amerika ilə rəqabət mövqeyindən çıxması ilə nəticələnən son hadisələrdən sonra bütün dünyanı, xüsusən də İslamın qızıl torpaqlarını öz rəqibsiz zonasına çevirmək və necə deyərlər, soyuq müharibənin bitməsindən sonra bu nüfuzun qarşısında möhkəm maneə olan İslam oyanışı ilə hərtərəfli müharibəyə başlamaq fikrindədir.

*Hörmətli Allah evinin hacılarına müraciət ( 16 iyun, 1991)*

## *Amerika İslam dünyasının ən əsas problemi kimi*

İslam dünyasının əsas problemi Amerikadır. Hegemonçu və müstəmləkəçilərin İslam dünyasında fəallığı xalqların İslam və xalq kimliyinə həmişə ən çox və ən böyük zərbəni vurmuşdur. Müstəmləkəçilər İslam dünyasının şərqindən - İndoneziyadan, Malayziyadan və Hindistandan tutmuş Afrikaya qədər hər yerdə olmuşlar, xalqları zəiflətmiş, onların qanını sormuş, iradələrini süstləşdirmişlər. Bu gün o hegemonçu və müstəmləkəçi Amerikadır, digərləri kənardadırlar. Amerikanın müdaxiləsi ən böyük problemdir. Onun varlığı heç bir fəlakətlə müqayisəyə gəlməz. Bu gün Amerikanın müdaxiləsi İslam dünyasının ən böyük bədbəxtliyidir. Buna çarə qılmaq lazımdır. Amerikanı meydandan çıxarmaq, onu zəiflətmək lazımdır. Xoşbəxtlikdən zəif də olmuşdur. Bügünkü Amerika 20-30 il öncəki Amerika deyil. Amerika bu gün çox zəifləmişdir. Bunu yadda saxlamaq və ümidsiz olmamaq lazımdır.

*İslam Vəhdəti konfransının iştirakçıları ilə görüşdə çıxış (20 fevral, 2011)*

## *Sionizm – regionda xərçəng şişi*

Bu gün qondarma sionizm dövləti regionu xəstəliyə və məhvə düçar edən bir xərçəng şişi kimidir. İmperializmin bütün səyi bu xərçəng şişini qorumaqdır. Bu xərçəng şişinin regionda olması, burada müharibələrə, ixtilaflara, parçalanmalara və yanlış siyasətlərə səbəb olmuşdur. Onu burada saxlamaq və özlərinin regiondakı bazalarını qorumaq məqsədilə bütün güclərini işlədirlər. Bu gün biz onun təsir və nəticələrini, yəni xalqların reaksiyasını görürük. Xalqlar oyandıqda bu vəziyyətə dözməyəcəklər.

*Peyğəmbərin (s) doğum günündə quruluşun məsul şəxsləri ilə görüşdə çıxış (21 fevral, 2011)*

## *Şiəliyi gözdən salmaq – İslam oyanışı hərəkətinə maneə kimi*

Təəssüf ki, bu gün düşmənlərin planlı şəkildə gördüyü işlərdən biri dünyada Şiə əqidələrini əksinə göstərməkdir. Bəziləri İslam inqilabının cazibəsinin, İslam oyanışının əzəmətli hərəkətinin dünya xalqlarını cəlb edə bilməməsindən ötrü kitab yazır, pul alırlar. Bu gün həmin işlər görülür. Odur ki, şiəliyin düzgün sözünü təşnə və ehtiyaclı beyinlərə, zehinlərə və ürəklərə köçürə bilən şəxslər bu əhəmiyyətli işi görməlidirlər.

*Qədiri-Xum bayramı münasibətilə quruluşun məsul işçiləri ilə görüşdə çıxış (18 may, 1995)*

## *Qərbin İslam ümmətinə qarşı xəbislikləri*

Düzgün və kamil həcc qəlbləri bir-birinə yaxınlaşdırmaq, məlumatların mübadiləsi və təxribatların ifşası vasitəsilə düşmənlərin İslam və müsəlmanlar əleyhinə ən təhlükəli təxribatlarını zərərsizləşdirə bilər. Bu gün İslam düşmənləri, hegemonluğun və sionizmin başçıları müsəlmanlar arasında təfriqə yaratmağı, təbliğat aparmaqla İslam oyanışından və Quran hakimiyyətindən danışan və müsəlmanların izzəti iddiasında olan hər bir ölkəyə, hökumətə və cəmiyyətə qarşı qalmaqal yaratmağı özlərinin ən mühüm işləri bilirlər. Çünki əgər İslam ümmətinin fəal və aktiv hissələrini onun digər hissələrindən ayıra bilsə, öz qarşısında vahid və əzəmətli bir ümməti görməyəcəyinə və İslam ümmətinə qarşı xəbis planlarını başağrısız icra edəcəyinə əmin olacaq. Bu günlər dünya xalqları hegemonluq siqnallarının İslam Respublikası əleyhinə iri həcmli, sıx və geniş miqyaslı təbliğatına şahiddirlər. Bu, sözügedən siyasətdir, Allahın lütfü ilə bu günədək uğursuz olmuşdur, lakin var qüvvə ilə davam etdirilir.

*Hörmətli Allah evinin hacılarına müraciət ( 4 may, 1995)*

## *Hegemonluğun puç qüdrəti və zəhmi*

Düşmənin puç qüdrəti gözləri tutmamalıdır. Onlar müsəlmanların parçalanmasından və ruhiyyə zəifliyindən istifadə edib sadə insanların gözləri qarşısında uydurma qüdrət nümayiş etdirirlər. Müsəlmanların doğrudan da hegemonluq qarşısında dayandığı bütün səhnələrdə onlar məğlubiyyətə uğramış, yaxud öz məqsədlərində nakam qalmışlar. İslam İranı Allahın güc və qüvvəsi ilə ötən 16 ildə Amerika və onun müttəfiqlərinin əzəmətli və əfsanəvi zoru qarşısında qalib çıxmışdır və bu gün həmişəkindən daha iqtidarlı, daha uğurlu, daha aktiv və daha ümidvardır. Bunun özü həmin iddianı sübuta yetirir. Bu gün İslam oyanışı hərəkətinə qarşı mübarizədə hegemonluğun bayraqdarı olan Amerika bu ədalətsiz mübarizədə nəinki məğlub və uğursuz olmuş, hətta öz daxilində də iqtisadi, təhlükəsizlik və siyasi baxımdan böyük və həllolunmaz problemlərlə üz-üzə qalmışdır. Onlar özlərinin böyük qüdrət fəaliyyətlərində də (Amerikanın xam və məğrur başçılarının səhv gümanına görə, bu onların böyük qüdrət hüququndandır) ardıcıl məğlubiyyətlərin acı tamını dadmışlar və inşallah gələcəkdə də dadacaqlar.

*Hörmətli Allah evinin hacılarına müraciət (4 may, 1995)*

**“Biz istəyirik ki, yerdə zəifliyə uğradılıb əzilənlərə mərhəmət göstərək, onları öndə gedənlər və varislər edək!”**

Qəsəs,5

# İslam oyanışının reallaşması

## *Hegemonçu qüvvələrin tədrici süqutu*

Bu gün Orta Şərq oyanmışdır, İslam dünyası oyanmışdır, bu regiondan uzaqda olan, lakin buranın əzəmətli sərvətlərindən ötrü hücum çəkib, modern və postmodern müstəmləkəçilik dövrlərini təcrübə edən qüvvələrin istismarçılıq illəri sona çatmaqdadır. Bu bir həqiqətdir. Bir vaxtlar iki real qüdrət olan Amerika və SSRİ bu regionun bütün siyasi işlərinə hakim idilər. Mövcud qüvvələrin bir hissəsi sola məxsus idi, bir hissəsi sağa. Bir-birləri ilə də ixtilafda və çəkişmədə idilər. Bəzən də həmfikir olurdular. Onların arxasındakı qüvvələr, Amerika və SSRİ düzəlişirdilər. Birdən görürdük ki, Misiri satdılar; necə ki, bir zaman satdılar da. Əslində iki düşərgə arasında müharibə gedirdi. Sonra yuxarıda pərdə arxasında oturub müzakirələr aparırdılar. Xalqlar, rəhbərləri və maraqları hamılıqla ayaq altında əzilirdi. Bu gün elə deyil. Bu gün region xalqları böyük qüdrətlərin tədrici süqutunu görürlər. Bu sahədə öncül olan İslam İranıdır.

*Ordunun Hərbi Hava Qüvvələrinin komandirləri və təyyarəçiləri ilə görüşdə çıxış (8 fevral, 2011)*

## *İslam birliyinin dünyada inikası*

Bunu bir dərs kimi, mühüm bir xatırlatma kimi İslamın əziz Peyğəmbərinin (s) doğum günündə yadımızda saxlamalı, ondan dərs almalı, ibrət götürməli və ona yaxınlaşmalıyıq; necə ki, yaxınlaşmışıq da. Bu gün xoşbəxtlikdən İslam ümmətinin birliyini və İslam oyanışını müdafiənin uca fəryadı İslam dünyasında, müxtəlif ölkələrdə və müxtəlif xalqlar arasında çox gözəl və müsbət surətdə əks olunmuşdur. Allah-Taala haqq sözə bərəkət verir, haqq torpaqda əkilmiş nihalı cücərdir. Bu sözün bu gün dünyada böyük hörməti var. Bu gün dünyada İslam Respublikasının uca səsi və bütün vücudu ilə bəyan etdiyi haqq sözə qarşı qəbuletmə haləti var. Belə prinsipial məsələlərdə hamının - hökumətin, xalqın və məmurların sözü birdir, fəryadı birdir. Bu sahələrdə İslam

Respublikasının sözü aydındır və Allaha həmd olsun ki, inikası da var.

*Əzəmətli Peyğəmbərin (s) doğum günü münasibətilə görüşdə çıxış (4 mart, 2010)*

## *Livanda 33 günlük müharibə - tarixi bir hadisə*

Livan məsələsi adi bir məslə deyildi. Bu 33 günlük müharibə tarixi bir hadisə idi. Biz bütün regionda bunun bənzərini xatırlamırıq. Müsəlman xalqların və İslam oyanışının düşmənləri də heç zaman belə bir şey gözləmirdilər. Amma baş verdi.

*İslam İnqilabının Böyük Rəhbərinin Tehranda cümə namazı xütbələri (13 oktyabr, 2006)*

## *İraqda İslam oyanışı dalğası*

İraq xalqının müqavimətini görürsünüz. İraqlılar uzun illər İngiltərə hökumətinin, sonra da solçu qüvvələrin təzyiqi altında hərəkət etməyən şəxslərdirlər. İslam oyanışı dalğası iraqlıları belə oyatmışdır. Bu yeni layihə öz səmərəsini vermiş, bəşəriyyətə yeni bir mədəniyyət, yeni bir fikir və yeni bir yol təqdim etmişdir. Qəzəblər və iradlar buna aiddir. Atom bombası məsələsi və dünyada hərbi nüvə fəaliyyətlərinə dair yaydıqları xəyalların hamısı bəhanə və boş sözdür. Məsələ bu deyil. Hətta İslama qarşı da İslamın özünə və İslam şüarına görə müxalifətçilik edilmir. Siz bunu yaddan çıxarmayın ki, dini şüarların, yaxud din iddiasında olan hökumətlərin tarixində ruhanilərin hökuməti az olmayıb, çox olub. Bizim gənclik dövrümüzdə dünyanın bəzi yerlərində məsihi ruhanilərin hökuməti vardı. Bir neçə əsr öncə kilsə əksər qərb ölkələrində və bəzi başqa bölgələrdə hakimiyyət başında idi. İslam tarixində də din iddiaçılarının hökumətini görürük. Bunlar tarixdə az olmayıb. İndi də dünyada din şüarını rəhbər tutmuş hökumətlər vardır. Dünyada az olan və bütün bu düşmənçiliyi özünə cəlb edən məsələ dini dəyərlərin hökuməti, dinin peyda olması, yəni ictimai ədalətin həyata

keçməsinə təkiddir. Bizim dediyimiz şüar deyil, bizim varlığımız və kimliyimizdir.

*İslam İnqilabının Böyük Rəhbərinin quruluşun məsul şəxsləri ilə görüşdə çıxışı (28 oktyabr, 2004)*

## *İslam oyanışı – inkarolunmaz reallıq*

Bu gün dünyada bir neçə inkarolunmaz reallıq var. Birinci reallıq İslam dünyasının oyanışıdır. Heç kim buna şübhə edə bilməz. Bu gün dünyanın bütün bölgələrində - istər müsəlman ölkələrində, istər müsəlmanların azlıqda olduğu ölkələrdə müsəlmanlar İslama təmayül, İslam kimliklərinə yiyələnmək hissi keçirirlər. Bu gün İslam dünyasının ziyalıları sosializmdən və qərb məktəblərindən iyrənmiş halda İslama yönəlmişlər, bəşəriyyətin dərdlərinin əlacını İslamdan istəyir və soruşurlar. Bu gün müsəlman ümmətin qəlbi uzun əsrlərdən bəri bənzərsiz şəkildə İslama meyllənmişdir. On illər boyunca qərbin və şərqin müsəlman ölkələrinə kəskin və geniş siyasi-mədəni hökmranlığından sonra bu gün İslam dünyasının gənclərinin baxış üfüqü və nəzəri İslama sarı yönəlmişdir. Bu bir həqiqətdir. Qərblilərin və dünya hegemonçularının özləri də bunu etiraf edirlər. Onlar dəfələrlə təkrar etmişlər ki, İslam ölkələrinin hər hansı birində azad seçkilər keçirilsə, xalqın seçdiyi İslama etiqadlı, sadiq və İslamı yayan şəxslər olacaqlar. Buna görə də qərbin demokratiya iddiası bu gün paradoksa düçar olmuşdur. Bir tərəfdən demokratiya və xalq hakimiyyəti bayrağını əldə tutmuşlar, digər tərəfdən isə bu bayrağı İslam dünyasında sözün həqiqi mənasında ucaltmağa cürət etmirlər. Bilirlər ki, İslam ölkələrinin hər hansı birində xalqın səsi və seçimi rol oynasa, şübhəsiz, islamçılar hakimiyyəti ələ alacaqlar. Xalq müsəlmanları seçəcəkdir... Bu danılmaz bir həqiqətdir. Bu gün İslam oyanışı, hətta İslam hərəkatı İslam dünyasında aydın bir həqiqətdir. Bunu heç kəs inkar edə bilməz.

*İslam İnqilabının Böyük Rəhbərinin quruluşun məsul şəxsləri və xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışı (2 sentyabr, 2005)*

## *İslam hakimiyyətinin təcrübə və iş əsri*

İslam xalqları İslama qayıtmalıdırlar. Əlbəttə, darvazalar açılmışdır. Ötən əsr, yəni hicri tarixlə 13-cü əsr İslam fəryadçıları əsri idi. Əsrin əvvəllərində İslamın böyük təqlid müctəhidi olan Mirzə Şirazi İngiltərə kompaniyasına qarşı özünün qətiyyətli fətvasını verib, bir xalqı hərəkətə gətirdi. O zamandan İranda məşrutə hadisəsinə, Hindistanda İslam hərəkətlərinə, İslam dünyasının qərbində - Orta Şərqdə və Şimali Afrika bölgəsində İslam oyanışına qədər, danışan böyüklərə, Seyid Cəmaləddinlərə və digərlərinə qədər... Həmin əsr təxminən fəryad və mübarizələr əsri idi. Sonrakı əsr isə təcrübə əsridir. Bizim yaşadığımız indiki əsr təcrübə əsridir. Hicrətin 14-cü əsri fəryad, oyatmaq və elan əsri idi. Bu 15-ci əsr isə əvvəlindən və başlanığıcından təcrübə və iş əsridir.

İslam xalqlarının təcrübə kəsb etdiklərini və işlədiklərini görürük. Bir nümunəsi İslam Respublikası idi. Bu birinci nümunə idi. Birinci nümunə olduğumuza görə biz çoxlu problemlər keçirdik. Müsəlmanlar bu nümunədə təcrübə toplamalıdırlar. Bu gün öz ölkələrində İslam hərəkatını reallaşdırmaq istəyən xalqlar İran xalqından daha kompleks bir iş göstərə bilərlər; əgər Allah kömək etsə və əgər onlar iradə göstərsələr.

*Mübarək Məbəs bayramında İslam Respublikası quruluşunun məsul şəxsləri və Fəcr ongünlüyü mərasimində iştirak edən xarici qonaqlarla görüşdə çıxış (2 fevral, 1992)*

## *Allahın doğru vədi həyata keçəcək!*

Allaha həmd olsun ki, gələcək yaxşı gələcəkdir. Bizim gələcək üfüqdə gördüyümüz budur ki, Allahın lütfü ilə düşmən dünyada mühasirə olunacaq. Bizi regionda mühasirə etməyə çalışdılar, lakin Allah-Taala bunları ətrafdan mühasirə edəcək: "Əzab onları başlarının üstündən, ayaqlarının altından saracaqdır". İndi onun nümunələrini burada müşahidə etməkdəsiniz. İslam oyanışı bu qəbildəndir. Keçmiş Sovet Sosialist Respublikaları İttifaqının dağılması bu qəbildəndir. Avropa daxilindəki irqi və milli ixtilaflar bu qəbildəndir. Biz

heç kəs üçün müharibə arzulamırıq. Lakin Allahın işi tamaşa etməlidir.

*Buşəhr vilayətinin ruhaniləri, elm hövzəsi tələbələri, cümə və məscid imamları ilə görüşdə çıxış (1 yanvar, 1992)*

## Azadlıq ətri, İslama və Qurana qayıdış

Bu gün müsəlman xalqlar bir neçə əsrlik tənəzzüldən, durğunluqdan və rəzillikdən sonra İslam dünyasının dörd bir tərəfində oyanmış və Allah üçün qiyama qalxmışlar. Bir çox İslam ökələrində azadlıq və istiqlaliyyət ətri, İslama və Qurana qayıdış istəyi cəmiyyəti vəcdə gətirir. Müsəlmanların nurlu və möcüzəli keçmişləri ilə, erkən İslam çağının Allah üçün qiyam və dini mübarizə dövrü ilə bağlılıqlarını möhkəmlətməyə həmişəkindən daha çox ehtiyacları var. Bu məmləkətdə İslam xatirələri hər bir təfəkkürlü müsəlman üçün şəfaverici dərman kimidir, onu zəiflikdən, zəbunluqdan, məyusluqdan və bədbinlikdən xilas edir, həmişə hər bir ağıllı və hikmətli insanın həyat və fəaliyyət məqsədləri olan İslam amallarına çatmaq üçün yolu göstərir.

*Hörmətli Allah evinin hacılarına müraciət (16 may, 1991)*

## İslamın inkişaf, oyanış və qələbə dövrü

İslam Respublikası bütün bu ədavət və düşmənçiliklər qarşısında möhkəm və qüdrətli şəkildə dayandı, zəifləmədi, daha da gücləndi, özündən xaricdə olan müsəlmanları da oyatdı. Biz bu gün müsəlmanların oyanışını müşahidə edirik. Həmişə demişik, yenə də təkrar edirik ki, bu dövr İslam və müsəlmanların inkişafı, oyanışı və qələbəsi dövrüdür və bu, İslam Respublikasına görədir.

*Tehranın cümə namazı xütbələri (30 mart, 1990)*

## Qədim Misirdə İslam oyanışı

Bu gün İslam dünyasında bir oyanış duyulur. Bunu daha biz demirik. Bu illərdə biz deyirdik ki, İslam oyanışı və İslam hərəkatı başlanmışdır. Çoxları məsələnin zahirinə baxıb deyirdilər ki, bir şey yoxdur, bunlar nə deyirlər. Lakin bu gün

baş gözləri görməkdədir. Qulaqlar fəryadları eşitməkdədir. Səhnə hər bir şeyin açıq-aşkar göründüyü səhnədir. Misir hadisəsi çox mühüm bir hadisədir. Sivilizasiyalı, dərin təfəkkürlü və yaxşı gənclərə malik qədim bir xalqı olan Misiri bir qrup xəyanətkar muzdur Amerikadan asılı etmişdi, sionist düşmənə bağlamışdı. Xalq ürəkdən qovrulur, lakin bir iş görə bilmirdi. Çünki təzyiq çox idi. Orada baş verən bu əzəmətli hərəkət birdən-birə baş verən hərəkət deyildi. Böyük ictimai hərəkətlər bir anlıq hadisələr deyil. Bunlar bir anlıq aşkar olmaqdır. Hadisə uzun zaman boyunca bir-birinin ardınca müxtəlif amillərin baş verməsilə - inamlarla, məlumatlanmalarla, yanmalarla və nifrətlərlə toplanır. Qəflətən bir münasibətlə, münasib bir zamanda aşkara çıxır. Misirdə də aşkara çıxdı.

*Şərqi Azərbaycanın minlərlə əhalisi ilə görüşdə çıxış (16 fevral, 2011)*

## Qəti gələcək: vahid İslam ümmətinin təşkil edilməsi

Bu gün Allaha həmd olsun ki, İslam cəmiyyətləri İslam quruluşunun əhəmiyyətinə vaqif olmuşlar. Uzun illər boyunca böyük yazıçılar, natiqlər və çoxlu ürəklər buna cəlb olunmuşdur. İslam oyanışı başlanmışdır. Müsəlman cəmiyyətləri əllərində olan bu sərvətin əhəmiyyətindən agah olmuşlar. Düzdür, İslam düşmənlərinin düşmənçilikləri də bir o qədər artmışdır. Dayanmadan müsəlman xalqlar arasında təfriqə yaratmaq və ixtilaf salmaqla məşğul olurlar, millətləri, irqləri və təəssübləri təhrik edib, hər qrupu bir tərəfə çəkmək istəyirlər. Bu onu göstərir ki, düşmən İslam agahlığının və İslam oyanışının dünyanın müsəlman bölgələrində öz işini gördüyünü anlamışdır. Həqiqət də budur. Şübhəsiz, həmin hiss müsəlman xalqları İslam quruluşuna və vahid İslam ümmətinin təşkilinə doğru çəkəcək. Bu qəti bir gələcəkdir. Bu düşmənçiliklərin təsiri olmayacaq. İslamın qüvvəsi bunlardan çox güclüdür. Necə ki, İslam İranında – heç kəsin təsəvvür etmədiyi bir yerdə əzəmətli İslam qüvvəsi xalqı birləşdirib, ürəkləri bir-birinə yaxınlaşdıra bildi. İslam inancını bu

hərəkətin dayağı edib, burada bir İslam quruluşu yaratdı. Bu baş vermiş bir işdir.

*İslam İnqilabının Böyük Rəhbərinin Əziz Peyğəmbərin (s) və İmam Sadiqin (ə) doğum günü münasibətilə İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışı (1 iyul, 1999)*

Mündəricat

Böyük Məqamlı Rəhbər Ayətullah Xameneinin Beynəlxalq İslam Oyanışı Konfransında bəyanatı ........................................ 3

Birinci fəsil: İslam oyanışının zərurətləri ................................ 13

Maddi sivilizasiyaların xalqlara ağır yük olması .................. 13

Misirdə İslam hərəkatını gücləndirməyin zəruriliyi ........... 13

Xalqların İslam hökmlərinə ehtiyacı .................................. 14

İslam əsasında cəmiyyət və mədəniyyət qurmaq .............. 14

İmperializmin İslam dünyasının təbii və insani mənbələrinə göz dikməsi ......................................................................... 15

İslam dünyası  imperializmin əsas problemidir .................. 15

İslam oyanışı və İslam birliyi  imperializmin hökmranlığına mane olur ........................................................................... 16

İslam dünyasına hökmranlığını möhkəmlətmək istəyən imperializm ........................................................................ 16

Dünyanın hər yerində imperialist güclərin müsəlmanlara təzyiqi ................................................................................ 16

"İslam ümmətinin qəlbi Fələstin eşqi ilə döyünür!" ........... 17

Müstəqil İslam hökumətindən qorxu hissi ......................... 18

İkinci fəsil: İslam oyanışının yaranış amilləri .......................... 19

İslam oyanışının yarandığı onillik....................................... 19

Oyadıcı hadisələr ........................................................... 19

İran xalqı İslam oyanışının öncülü kimi ............................... 19

İslam oyanışı - fikir və düşüncənin təzahürü ....................... 20

İmam Xomeyni - İslam oyanışının nümayəndəsi ................ 20

İslam inqilabı İslam oyanışının müdafiəçisidir .................... 21

Mənəviyyat, ağıl və ədalət İslamı ....................................... 21

İslam inqilabı ədəbiyyatında yeni məfhumlar .................... 22

İslam təməllərinə və prinsiplərinə qayıdış istəyi ................ 23

İnqilabın bahar mehinə bənzər yayılması .......................... 23

Hegemonluğun İslam hakimiyyəti ilə aşkar müxalifliyi ...... 24

İslam İnqilabı və müsəlman cəmiyyətlərinin arzusunun reallaşması ........................................................................ 24

İslam hər bir istismarçının qarşısında dayanacaq! ............. 25

İslam inqilabı, dünya balansı və Şərq blokunun sıradan çıxması .............................................................................. 25

İslam Respublikası İran xalqının müqavimətinin şirin səmərəsi kimi ................................................................... 26

İmam Xomeyni məktəbi və təfəkkürü  dünyada təsirli amildir ................................................................................ 26

İslamın və inqilabın möcüzəsi ............................................. 27

İslam inqilabı və əsl İslamın dirçəlişi .................................. 27

İslam hərəkatlarının güclənməsi ........................................27

Üçüncü fəsil: İslam oyanışının meyarları və əsərləri..............28

İslam oyanışı hegemonluğun ifşaçısı və təhlükəsi..............28

Haqq və batilin meyarı .....................................................28

Hegemonçu sistemin İslam oyanışına qəzəbi.....................29

Zalım güclərin xalqların mənəvi və dini duyğularından qorxusu..............................................................................29

"Böyük güclərin zoru günbəgün zəifləyir!"..........................29

Qərbin təhqir və hökmranlıq tilsiminin sınması.................30

Müqavimət və İslam mübarizəsinin genişlənməsindən yaranan qorxu ...................................................................30

Fələstin  İslam oyanışı hərəkatının əsas mehvəridir...........31

İslam oyanışı, Şərq və Qərbdə təlatüm ..............................31

İslamın Amerika və İsrailə ən böyük zərbəsi ......................31

Müsəlman xalqların hegemonçulara nifrəti.......................32

Amerikanın regiondakı ağır vəziyyəti .................................32

İslam oyanışının geniş coğrafi əhatəsi ...............................33

Sionizmin siyasi İslam təfəkküründən qorxusu ..................33

İslam oyanışı dünyanın zorakı qaydalarını pozur ...............34

İslam oyanışı mehi ............................................................34

İslam oyanışının irəliləməsi və dərinləşməsi ......................35

İslam ümmətinin düşmənlərinin nigaranlığı.......................35

Sükan hegemonçuların əlindən çıxmışdır! .........................36

İslam kimliyinin dirçəlişi..................................................36

Güclü siyasi İslam istismarçı quruluş üçün böyük təhdiddir ..............................................................................37

İslam oyanışı hərəkatının genişlənməsi.............................37

İslam hərəkatı hegemonluq və istismara qarşıdır ..............38

İslam dünyanı tutmaq istəyənlər qarşısında ən böyük maneədir ..........................................................................39

Amerikanın İslam fundamentalizmi qorxusu .....................39

Dördüncü fəsil: İslam oyanışının vəzifələri, üsulları və imkanları..........................................................................41

"Müqavimət göstərmək lazımdır!"...................................41

İslam ümmətinin böyük cihadı ..........................................41

Müsəlman xalqlar günbəgün daha ayıq!...........................42

Məzlumların müdafiəsi dini təşəbbüsdür..........................42

Birlik – İslam ümmətinin şəxsiyyət və qüdrət amili...........43

İslam kimliyi və oyanışını qorumaq ..................................43

İslamın dirçəldilməsi və onun İslam dünyasında tərənnümü ..............................................................................44

İslam amalını həyata keçirmək üçün müqavimət..............45
Müsəlmanlar və dünyanın taleyinə təsir göstərmək hissi..45
İslamın qurtuluş gəmisinə minmək ..................................46
İslam oyanışını İslam hakimiyyətinə yönəltmək vəzifəsi alimlərin öhdəsinə düşür.................................................46
Oyanış, ümid və hərəkət – Amerikanı yerində oturtmaq üçün lazım olan amillər ..................................................47
İslam inqilabının həyata keçməsində özünüislah və bəndəliyin təsiri ..............................................................47
İslam həyat tərzi xalqların haqqıdır!..................................48
Əqsa məscidi - mübarizə və oyanış mərkəzi! .....................48
Erkən İslam çağı hadisələri - müsəlman xalqlar üçün nümunə ......................................................................48
İslam vəhdətinin təsiri və xalqların həmdərdliyi ................49
Hökumətlərin xalqlarla birliyi – region problemlərinin həlli yolu ..........................................................................49
İslam inqilabı qərbə ən böyük təhdid kimi .........................50
İslam oyanışı, hadisələri təhlil və dərk qabiliyyəti.............50
İslam inqilabı və İslam müqavimət özəklərinin yaradılması .........................................................................51
Müsəlmanların rabitəsi İslam oyanışının şərtidir ...............51
Şiəlik İslam oyanışının avanqardıdır ..................................52

Beşinci fəsil: İslam oyanışı və təhlükələr ................................53
Tövhid və vəhdət bayrağının ucaldılması ...........................53
İnkişafda qürur və qəflət təhlükəsi ....................................53
Təfriqə imperializmin siyasəti kimi ....................................54
İslam torpaqlarında fitnələrin planlaşdırılması və idarəçiliyi ..........................................................................54
Beynəlxalq hegemonluq şəbəkəsi İslam hərəkatının qarşısında..................................................................55
Təfriqə yaratmaq məqsədilə müqəddəsliklərə hörmətsizlik ..........................................................................56
İslam oyanışı hərəkatının yatırılması ..................................57
İslam oyanışının bir saylı düşməni ....................................57
İslam quruluşu qarşısında təhdidlər ..................................57
Siyasi İslam və güşənişin İslam ..........................................58
Amerikanın İslam xalqları ilə ikili rəftarı .............................59
Sionizmin lənətlənmiş ağacı müsəlmanların evində ..........60
Böyük şeytanın İslam ölkələrinin sərvətlərini istismar etməsi ..................................................................................60
Amerika İslam dünyasının ən əsas problemi kimi .............61
Sionizm – regionda xərçəng şişi.........................................61
Şiəliyi gözdən salmaq – İslam oyanışı hərəkətinə maneə kimi .....................................................................................62

Qərbin İslam ümmətinə qarşı xəbislikləri ........................... 62
Hegemonluğun puç qüdrəti və zəhmi ................................ 63
İslam oyanışının reallaşması ............................................. 64
Hegemonçu qüvvələrin tədrici süqutu ........................... 64
İslam birliyinin dünyada inikası .......................................... 64
Livanda 33 günlük müharibə - tarixi bir hadisə .................. 65
İraqda İslam oyanışı dalğası ............................................... 65
İslam oyanışı – inkarolunmaz reallıq .................................. 66
İslam hakimiyyətinin təcrübə və iş əsri .............................. 67
Allahın doğru vədi həyata keçəcək! .................................... 67
Azadlıq ətri, İslama və Qurana qayıdış ............................... 68
İslamın inkişaf, oyanış və qələbə dövrü............................. 68
Qədim Misirdə İslam oyanışı ............................................. 68
Qəti gələcək: vahid İslam ümmətinin təşkil edilməsi ......... 69